

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini ilə TBMM Sədri arasında görüş keçirilib



3

№ 183 (6866)

# SƏS

7 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik

## "Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub"



2

Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib

# Sülhməramlılar və Zəngəzur dəhlizi



5

## "Avropa Parlamenti korrupsiyalaşmış bir qurumdur"



7

## Kişilərin ikinci telefonu: İŞ, YOXSA XƏYANƏT?



11

## Öyrənmə fərqi-disleksiya



15

## Tofiq Yaqublu imicini dəyişir



14

## "Fənərbağça" Türkiyə tarixində rekorda imza atıb



16

# "Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub"

*Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib*

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib. Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.**



Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klugen Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi. Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.

Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir. Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.



## Elçin Əmirbəyov:

### "Azərbaycanın Fransaya vasitəçi kimi etibarı sıfra bərabərdir"

"Bu gün Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması prosesində Fransaya potensial vasitəçi kimi etibarı sıfra bərabərdir." AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Radiofrance"a müsahibəsində deyib.

"Fransanın hazırkı siyasi rəhbərliyinin Ermənistana dəstəyi elə bir vəziyyətə gətirib çıxarıb ki, Azərbaycanda heç kəs, hətta nəzəri cəhətdən belə, Parisi Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına faydalı töhfə verə biləcək tərəf kimi qəbul etməyə hazır deyil. Ermənilərin maraqlarını fədakarlıqla müdafiə edən Parisin sadiqliyinin ən son sübutu Fransanın xarici işlər naziri Katrin Kolonnanın İrəvanla hərbi-texniki əməkdaşlığı yeni keyfiyyət səviyyəsinə çıxarmaq qərarı, həmçinin de-fakto müttəfiqinə silah və hərbi texnika tədarükünün başlanması ilə bağlı bu yaxınlarda verdiyi bəyanatdır", - deyə Elçin Əmirbəyov qeyd edib.

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi bildirib ki, Fransanın məsuliyyətsiz addımı təkcə onun "sülhməramlı" olmaqla bağlı böyük iddialarını heçə endirmir. Bu, həm regionu hərbi qarşıdurma ilə bağlı yeni təhlükəli vəziyyətə çatdırır, həm də Ermənistanı Azərbaycana qarşı yeni ölümcül təxribatlara və təcavüzə sövq edir.

# "Azərbaycan-İran dostluğu bütün bölgə üçün önəmli amildir"

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.**



Dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda, daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş ilk növbədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi. Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu deyərək, Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.

# "Ölkələrimiz arasında dostluq əlaqələri zəngin tarixə malikdir"

## Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Milli Assambleyasının sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.**

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi. Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Qonaq, ilk növbədə, Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi. Serbiya Milli Assambleyasının sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.



Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

# YAP Sədrinin müavini ilə TBMM Sədri arasında görüş keçirilib









**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir. Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş arasında görüş keçirilib.**

YAP nümayəndə heyətini ölkəsində salamlamaqdan məmnunluğunu ifadə edən TBMM-in Sədri, İstanbul millət vəkili Numan Kurtulmuş Azərbaycan-Türkiyə münasibətlərinin bənzərsiz dostluq və qardaşlıq örnəyi kimi istər ikitərəfli münasibətlərin inkişafı, istərsə də regional əməkdaşlıq və təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Parlament sədri Azərbaycan ilə Türkiyənin bir-birinin milli maraqları və dövlətçilik mənafelərini beynəlxalq arenada layiqincə müdafiə etdiklərini vurğulayıb. "Bu gün qürur hissi və minnətdarlıqla qeyd edirik ki, Azərbaycan növbəti yüzillikdə yeni hədəflərinə əmin addımlarla irəliləyən Türkiyəyə öz qardaş dəstəyini göstərir. Türkiyə də öz növbəsində Azərbaycanın yanında olduğunu, xüsusilə də onun haqlı və ədalətli mövqeyini dəstəklədiyini qətiyyətlə ifadə edir" ,- deyən N.Kurtulmuş Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsinin bütövlükdə Türk dünyası üçün müstəsna əhəmiyyətə malik olduğunu bildirib.

TBMM-in Sədri iki ölkə arasında parlamentlərarası əməkdaşlığın önəmindən də söz açıb. O, qardaş ölkələrin qanunverici orqanlarında Azərbaycan-Türkiyə dostluq qruplarının fəaliyyətinin, eyni zamanda, qarşılıqlı səfərlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb. O bu kontekstdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının və əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən addımların atılmasının ortaq hədəflərin gerçəkləşdirilməsinə zəmin yaratdığını bildirib.

Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinə göstərilən yüksək diqqətə görə minnətdarlığını ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov TBMM-in sədri seçilməsi münasibətilə Numan Kurtulmuşa bir daha təbriklərini çatdırıb və ona fəaliyyətində uğurlar arzulayıb. YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin "bir millət, iki dövlət" fəlsəfəsi əsasında ortaq dəyərlərə, milli maraqlara və ümumi hədəflərə uyğun uğurla fəaliyyət göstərərək strateji müttəfiqlik münasibətlərini dərinləşdirdiklərini diqqətə çatdırıb. O qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi və səyləri sayəsində inkişaf edir: "Biz unikal dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətləri qurmağa müvəffəq olmuşuq. Bütün sahələrdə çoxşaxəli əlaqələrin genişləndirilməsi, işbirliyinin daha da gücləndirilməsi üçün ardıcıl, məqsədyönlü addımlar atılır. Xüsusilə də, 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin uğurla icra olunması həm Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin inkişafı, həm də regionda dayanıqlı sülh, davamlı sabitlik və təhlükəsizlik, etibarlı əməkdaşlıq mühitinin formalaşdırılması baxımından böyük əhəmiyyətə malikdir".

Tahir Budaqov 44 günlük Vətən müharibəsinin Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq münasibətlərinin sarsılmazlığını bir daha sübut etdiyini xüsusi olaraq diqqətə çatdırıb. YAP Sədrinin müavini ikili standartlara, qərəzli və qeyri-obyektiv münasibətə baxmayaraq, Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycanın haqq işini qələbə ilə yekunlaşdırdığını, əzəli və əbədi torpağı olan Qarabağda lokal antiterror tədbirləri həyata keçirərək suverenliyini tam bərpa edən ölkəmizin haqlı və ədalətli mövqeyinin qardaş Türkiyə tərəfindən qətiyyətlə müdafiə olunmasının böyük mənəvi-siyasi önəm daşıdığını bildirib. Tahir Budaqov postmüharibə dövründə ölkələrimizin təşəbbüslərinin inkişafa xidmət göstərdiyini, Türkiyə şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak etməsinin daha bir qardaşlıq və dostluq nümunəsi kimi təqdirəlayiq olduğunu nəzərə çatdırıb.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində həm parlamentlər, həm də hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirib. Siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli yerə malik olduğunu söyləyən Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasındakı əməkdaşlığın məmnunluq doğurduğunu qeyd edib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Görüşdə Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım və AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya da iştirak ediblər.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# YAP ilə AK Parti arasındakı işbirliyinin gücləndirilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfədir

*YAP Sədrinin müavini ilə AK Parti Sədrinin birinci müavini arasında görüş keçirilib*







**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyə Respublikasında səfərdədir. Səfər çərçivəsində oktyabrın 6-da Ankarada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala arasında görüş keçirilib.**

Qonaqları salamlayan AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin sarsılmaz və bütün dünyaya nümunə olduğunu diqqətə çatdırıb. O, iki ölkənin bütün taleyüklü məqamlarda qardaşlıq və həmrəylik örnəyi ortaya qoyduğunu vurğulayıb. Efkan Ala qeyd edib ki, Azərbaycan ilə Türkiyə bütün sahələri əhatə edən çoxşaxəli əməkdaşlığı dərinləşdirmək iradəsi nümayiş etdirir və əlaqələrin yüksələn xətt üzrə inkişafı böyük məmnunluq doğurur.

44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlardan bəhs edən Efkan Ala Azərbaycanın lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etməsini tarixi hadisə kimi dəyərləndirib. O, Azərbaycan ilə Türkiyənin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib.

Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin əhəmiyyətindən bəhs edən Efkan Ala dövlət başçılarımızın siyasi iradələrinə uyğun olaraq iki hakim partiya arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını, bu kontekstdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin mühüm önəm daşıdığını diqqətə çatdırıb. O, YAP ilə AK Parti arasındakı işbirliyinin gücləndirilməsinin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfə olduğunu söyləyib. AK Parti Sədrinin birinci müavini həm dövlətlərimizin, həm də iqtidar partiyalarının daim birgə hərəkət edərək ortaq hədəfləri reallaşdıracaqlarına və mühüm nailiyyətlər qazanacaqlarına əminliyini ifadə edib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə IV Böyük Fövqəladə Qurultayını keçirən AK Partiyə nümayəndə heyəti adından uğurlar arzulayıb, qurultayın nəticələrinin həm Ədalət və İnkişaf Partiyası, həm də bütövlükdə Türkiyə Respublikası üçün faydalı olacağına inamını ifadə edib.

YAP Sədrinin müavini tarixi köklərə və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin hər iki ölkənin liderlərinin məqsədyönlü siyasəti nəticəsində strateji müttəfiqlik zirvəsinə yüksəldiyini, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın ikinci ölkənin olmadığını diqqətə çatdırıb.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü və tarixi ədaləti təmin etməsində Türkiyənin mənəvi-siyasi dəstəyinin əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geosiyasi reallıqların regional təhlükəsizlik və işbirliyi üçün mühüm imkanlar yaratdığını bildirib. YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycanın lokal xarakterli antiterror tədbirləri həyata keçirərək konstitusiya quruluşunu bərpa etdiyini və regionda sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində prinsipial mövqe sərgilədiyini bildirib.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyaları olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin mühüm rolu olduğunu bildirən Tahir Budaqov partiyalarımız arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu söyləyib. YAP Sədrinin müavini qeyd edib ki, 2021-ci ildə iki partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasından sonra işbirliyinin dərinləşdirilməsinə xidmət edən mühüm addımlar atılıb. Xüsusilə də, qarşılıqlı səfərlər və hər iki partiyanın birgə təşkilatçılığı ilə keçirilən müxtəlif tədbirlər münasibətlərə dinamizm gətirib.

Daha sonra qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

# Əcnəbilər Azərbaycanda yaşamaq icazəsini necə ala bilər?

*AYDINLIQ GƏTİRİLDİ*



"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə almalıdırlar. Bu icazə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilir. Həmin şəxslərə ölkə ərazisində yaşamağa icazə verildikdə Dövlət Miqrasiya Xidməti müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi təqdim edir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vəsiqənin icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan qayıtmaq hüququ verən, o cümlədən həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir: "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərdəki məlumatlar dəyişərsə və ya icazə vəsiqəsi itirilərsə, onlar bu barədə 10 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidirlər. Eləcə də, icazə vəsiqəsinin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidirlər".

Fariz Əkbərov sözlərinə belə davam edib: ""Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə ödədikləri dövlət rüsumunun məbləğinə müvafiq olaraq həmin qanunda nəzərdə tutulmuş müddətdə baxılır.

**Müvəqqəti yaşamaq icazəsi üçün əsaslar**

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində müvəqqəti yaşamaq icazəsi üçün əsaslar Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45-ci maddəsində təsbitini tapmışdır. Bu əsaslardan bəziləri aşağıdakılardır:

- Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;
- Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;
- Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı olduqda;
- Azərbaycan Respublikasında fəaliyyət göstərən banklara müddətli əmanət müqaviləsi əsasında azı 100.000 manat məbləğində pul vəsaiti qoyduqda;
- Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada iş icazəsi aldıqda;
- Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda;
- Dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda;
- İnsan alverindən zərər çəkmiş şəxs hesab olunduqda;
- Cinayət təqibi orqanlarına yardım göstərdikdə və s.".

***Ayşən Vəli***

# Sülhməramlılar və Zəngəzur dəhlizi

**Avropa İttifaqında qəribə hadisələr baş verir. Üzdə məslək,əqidə birliyindədirlər, amma ittifaqa üzv dövlətlərin hadisələrə baxışları müxtəlifdir. Bu rəngarənglik doğru qərarların qəbul edilməsində də problemlər yaradır. Konkret desək, Avropadakı birlik anlayışı simvolikdir, daha çox siyasi mənadadır, burada əməldən çox sözə üstünlük verilir. Boş qərarlar, bəyanatlar, bəyannamələr, kağız üzərində qalan bir yığın razılaşma. Dünən hansısa komissiyanın verdiyi qərar Avropa İttifaqının digər dövlətlərinin fərdi maraqları ilə üst-üstə düşmədiyi halda onun ləğvi gündəmə gələ bilər. Hesab etsək ki, bu qurumda da ”söz sahibləri” var, onda burada nələrin baş verdiyini təsəvvür etmək olar.**

Avropa Şurasının rəhbəri Şarl Mişel Avropa Komissiyasının (AK) prezidenti Ursula fon der Leyenin xarici siyasət təşəbbüslərini tənqid edib və onu səlahiyyətlərini aşmaqda ittiham edib. Nümunə olaraq, cənab Mişel Tunislə miqrasiya sazişini göstərib. Onun sözlərinə görə, bu saziş AK rəhbəri tərəfindən imzalanıb, Aİ Şurası isə ”kənara qalıb”. Avropa Komissiyasının sözçüsü Arianna Podesta Şarl Mişelin bəyanatını yalan adlandırıb. Ş.Mişel xanım fon der Leyenin səlahiyyətlərindən sui-istifadə etməsinə misal kimi göstərdiyi AK və Tunis arasında miqrasiya sazişi bu ilin iyulunda bağlanıb. Mişelin sözlərinə görə, Avropa Komissiyasının sədri onu Niderland və İtaliyanın baş nazirləri Mark Rutte və Corciya Meloni ilə birlikdə imzalayıb, Aİ Şurası isə ”kənarda qalıb”.

Eyni zamanda, ”Şpigel” nəşri qeyd edib ki, Ursula fon der Leyeni səlahiyyətlərini aşmaqda ittiham etməklə yanaşı, Şarl Mişel özü də Ukraynaya 2030-cu ilə qədər Aİ-yə daxil olmaq perspektivini təklif etməklə səlahiyyətlərini aşıb. Belə bir bəyanatla çıxış edən cənab Mişel qeyd edib ki, Ukraynaya qoşulmaq üçün ”ev tapşırığını yerinə yetirməlidir”. ”Financial Times”ın yazdığına görə, Aİ Ukraynaya üzv olacağı təqdirdə ona 186 milyard avro xərcləməli olacaq.



## Avropa Komissiyası və ermənilər



Aİ Qarabağdan köçən ermənilərin humanitar problemlərinin həllinə kömək etmək üçün Ermənistana lazımi dəstəyi göstərməyə hazırdır. Ermənistan hökumətinin mətbuat xidməti xəbər verir ki, bunu Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Qranadada Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə deyib. Görünür, madam Ursula burada da səlahiyyətlərindən sui-istifadə edib. Bildirilib ki, Avropa İttifaqının Mülki Müdafiə və Humanitar Yardım üzrə komissarı gələcək ehtiyacları qiymətləndirmək üçün Ermənistana gələcək.

Bu arada Paşinyan Avropa Siyasi Birliyinin sammiti çərçivəsində imzaladığı bəyannamədə Azərbaycanın ərazisini Qarabağ da daxil olmaqla 86,6 min kvadratmetr kimi tanıyıb. Avropa Şurasının rəhbəri Şarl Mişel isə Ermənistan hökumətinin başçısını və Azərbaycan Prezidenti İlham Əliyevi oktyabrın sonunda Brüsselə görüşə dəvət edib. Amma Avropa İttifaqının rəsmisinin verdiyi digər digər xəbər bu qurumun sülhdən çox müharibəyə meyllındiyinə işarə vurur. Mişel deyib ki, Aİ Ermənistan üçün 2 milyard avroluq investisiya paketini gecikdirməməlidir. O xatırladıb ki, Aİ iki il əvvəl Ermənistana sözügedən investisiya paketini vəd edib. Bu vədin yerinə yetirilməsini gecikdirmək olmaz, çünki Azərbaycanın hərbi əməliyyatının nəticələrini aradan qaldırmaq üçün Ermənistanın dəstəyə ehtiyacı var. Avropa İttifaqı Şurasının rəhbəri Brüsselin Azərbaycanın hərbi güc tətbiq etmək qərarından ”şoka düşdüyünü” də deyib və əlavə edib ki, iki gün əvvəl İlham Əliyevlə telefonla danışıb və söhbət zamanı Azərbaycan lideri açıq-aşkar danışıb. Bakının Ermənistana qarşı heç bir ərazi iddiası olmadığını bəyan edib.



## Putin: ”Qarabağın statusu əsas məsələ idi”

Rusiya prezidenti Putin İrəvanın güzəştə getməməsinə münasibət bildirib və Qarabağın statusu və Rusiya sülhməramlılarının roluna toxunub. Rusiya prezidenti Vladimir Putin ”Valday” klubunun iclasında deyib ki, təxminən 15 il ərzində Rusiya Ermənistana güzəştə getməyi və Qarabağın 5 rayonunu Azərbaycana qaytarmağı və iki rayonunu özünə saxlamağı təklif edib, lakin onlar bundan imtina ediblər. ”Rusiya uzun müddətdir ki, Ermənistana Qarabağla bağlı həll yolları təklif edir, lakin İrəvan ”döyüşməyə” hazır olduğunu bildirərək bundan imtina edib”, - Putin bildirib. O qeyd edib ki, Qarabağdakı Rusiya sülhməramlıları yalnız atəşkəs rejiminə əməl olunmasına nəzarət edə bilər, onların başqa hüquqları yoxdur. ”Qarabağın statusu əsas məsələ idi, lakin Ermənistan özü onu Azərbaycanın bir hissəsi kimi tanıyıb”, - Putin bildirib.

*Ardı Səh. 6*

Əvvəli Səh. 5

Bu arada məlum olub ki, Rusiyanın Qarabağdakı sülhməramlıları Əsgəran, Ağdərə və Şuşada tərəflərin keçmiş təmas xətti boyunca müvəqqəti müşahidə məntəqələrinin sökülməsini başa çatdırıb. Nazirlik həmçinin bildirib ki, bu günə qədər "Qarabağın silahlı birləşmələri" tərəfindən 84 ədəd zirehli texnika, 121 ədəd avtomobil, 121 ədəd hava hücumundan müdafiə texnikası, 105 ədəd səhra artilleriya qurğusu, MLRS və minaatanlar, 1 ədəd PUA, 7 mindən çox atıcı silah və tank əleyhinə silah, 58,5 milyona yaxın döyüş sursatı təhvil verilib. Qeyd olunur ki, silah, hərbi texnika və sursatların saxlandığı yerlərin mühafizəsi Rusiya-Azərbaycan birgə mühafizə postları tərəfindən təşkil edilir.




# Qranada sammiti: qədər və sonra

## Rusiya əsgərləri Zəngəzur dəhlizinin mühafizəsini təmin edəcək?

Ukraynada və Qarabağdakı hadisələr Rusiyanı Cənubi Qafqaz və Qara dəniz regionlarında mövcudluğunu gücləndirməyə sövq edir. Abxaziyanın Oçamçira bölgəsində hərbi-dəniz bazasının yaradılması (daha doğrusu, yenidən yaradılması) və Cənubi Qafqazda Rusiya Federasiyasının mavi dəbilqəlilərinin tapşırıqlarını davam etdirməsi ilə bağlı məlumatları belə şərh edə bilərik. Cənub Hərbi Dairəsində (SMD) sınaq manevrləri davam edir. Rusiya qoşunlarının döyüş hazırlığının gücləndirilməsi məqsədi daşıyan təlim oktyabrın 5-də müdafiə naziri Sergey Şoyqu tərəfindən yoxlanılıb. O, Birləşmiş Qüvvələr Qrupunun qərargahında xüsusi əməliyyat zonasındakı qruplaşma komandirlərinin məruzələrini dinləyib və son bir ayda ehtiyata cəlb olunmuş hərbi qulluqçuların və könüllülərin döyüş hazırlığının təşkili və təmin edilməsi məsələlərinə diqqət çəkib. "Bu gün bizim doqquz ehtiyat alayımız var və onlar hazırlaşır və onların təbii, daimi doldurulması davam edir", - deyən Şoyqu qeyd edib ki, müqavilələli əsgərlərlə yanaşı, 38 min könüllü də ehtiyat hissələrə cəlb olunub.

Rəsmi məlumatlara və KİV-in materiallarına əsasən, Rusiya Ordusunun Cənub Hərbi Dairəsindəki birlik və hissələrinin manevrləri və təlimləri təkcə xüsusi əməliyyat zonasında fəaliyyət göstərəcək qoşunların deyil, həm də xüsusi əməliyyat zonasında tapşırıqların öhdəsindən gələcək qoşunların hazırlanması üçün həyata keçirilir. Belə ki, KİV oktyabrın 4-də Ermənistanın Gümrüdəki 102-ci Rusiya bazasının bölmələrinin "döyüş hazırlığını artırmaq məqsədilə" təşkil etdiyi taktiki təlimlər barədə məlumat yayıb. Hərbi manevrlər Cənubi Osetiya və Abxaziyada da keçirilib. Eyni zamanda, Abxaziya "prezidenti" Aslan Bjaniyanın dediyi kimi, "respublika" Rusiya Federasiyası ilə mühüm müqavilə imzalayıb. Sənədə əsasən yaxın vaxtlarda Oçamçira bölgəsində Rusiya Hərbi Dəniz Qüvvələrinin daimi bazası olacaq. Bütün bunlar həm Rusiyanın, həm də Abxaziyanın "müdafiə qabiliyyətinin səviyyəsini yüksəltməyə yönəlib".

Kreml bu məlumatı nə təsdiq, nə də təkzib edib, nə də xarici KİV-də Rusiya Federasiyasının Qara Dəniz Donanmasının (BSF) bir hissəsinin Sevastopoldan Novorossiyskə köçürüldüyü iddiası ilə bağlı xəbərləri təkzib edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bu barədə şərh verə bilmədiyini deyib və əlavə edib ki, "bölmələrimizin, gəmilərimizin, bölmələrimizin yerləşdirilməsi ilə bağlı məsələlər Müdafiə Nazirliyinin səlahiyyətindədir".

Rusiya mənbələrinin verdiyi məlumata görə, Zəngəzur dəhlizinin açılması mümkünlüyü ilə əlaqədar Moskva, Bakı və İrəvan arasında 2020-ci ildə imzalanmış üçtərəfli sazişə əsasən, Azərbaycandan onun eksklavı







Naxçıvana gedən marşrutların təhlükəsizliyinə nəzarəti Rusiya qüvvələri, o cümlədən, sərhədçilər və sülhməramlılar təmin edilməlidir. Beləliklə, Cənubi Qafqazda rus "mavi dəbilqələri"nin olması öz aktuallığını itirmir.

Bir daha vurğulamaq yerinə düşər ki, oktyabrın 5-də axşam saatlarında Rusiya Müdafiə Nazirliyi Qarabağın Əsgəran, Ağdərə və Şuşa yaxınlığındakı "tərəflərin keçmiş təmas xətti boyunca müvəqqəti müşahidə məntəqələri"nin ləğvinin başa çatdığını elan edib. Hərbi idarə qeyd edir ki, Rusiya sülhməramlı kontingenti hələlik "Qarabağ ərazisində tapşırıqları yerinə yetirməkdə" davam edir. Rusiya sülhməramlı kontingentinin məsuliyyət daşıdığı ərazidə atəşkəs rejiminin pozulması qeydə alınmayıb.

İndi məntiqi sual yaranır, Zəngəzur dəhlizi necə açılacaq və nəzarəti kimdə olacaq. Rusiyanın iştahasını başa düşdük, Ermənistanın Azərbaycandan başqa bütün sərhədlərini rus sərhədçiləri qoruyur, bu ölkənin elə bir sahəsi yoxdur ki, Rusiya şirkətlərin törəməsi olmasın. Ermənilərin canından başqa bütün Ermənistan Rusiyanın ovcundadır. Ermənilər istəsə də Rusiyanı ölkələrində belə asanlıqla çıxara bilməzlər. Önəmli bir məsələ də qaldı, Rusiya ilə Ermənistan arasında imzalanan əsas müqavilə. Bu müqaviləyə əsasən Rusiyanın 102-ci hərbi bazası 2040-cı ilədək Ermənistanda qalacaq. Belə kritik şərtlər altında ermənilər və Ermənistan rəhbərliyi iki gündən bir "Rusiya ilə bütün əlaqələri kəsirik" iddiasını reallaşdırmaq imkanına sahibdirlərmi? Əlbəttə yox. Rusiyanı Ermənistandan bir halda qoparmaq mümkündür, o da hər iki ölkənin parçalanması, darmadağın və məhv olması. Gözləyək

**V.VƏLİYEV**

# Türkiyə ilə Azərbaycanı ortaq tarixi keçmiş və milli-mənəvi dəyərlər birləşdirir

## YAP Sədrinin müavini AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini ilə görüşüb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin qardaş Türkiyə Respublikasına səfəri çərçivəsində oktyabrın 6-da Ankarada Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya ilə görüş keçirilib.**

Nümayəndə heyatini salamlayaraq "Vətəninizə xoş gəlibsiniz" deyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya YAP nümayəndə







heyətinin səfərinin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyib. O, iki hakim partiya arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi xüsusi diqqət mərkəzində olduğunu söyləyib. Z.Sırakaya AK Partinin Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük önəm verdiyini və qarşılıqlı səfərlərin bu baxımdan faydalı olduğunu diqqətə çatdırıb.

Türkiyə ilə Azərbaycanı ortaq tarixi keçmiş və milli-mənəvi dəyərlərin birləşdirdiyini söyləyən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini ölkələrimiz arasındakı münasibətlərin dünyada bənzəri olmadığını qeyd edib. O, Azərbaycanın möhtəşəm Qələbəsindən sonra regionda yeni reallıqların yarandığını, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün yeni vəzifələr müəyyənləşdirdiyini bildirib. "Hazırkı gerçəkliklər və aktual çağırışlar Azərbaycan ilə Türkiyənin hakim partiyaları arasında təmasların gücləndirilməsini, əməkdaşlığın genişləndirilməsini zəruri edir" ,- deyən Z.Sırakaya istər dövlətlərimizin, istərsə də iqtidar partiyalarının birgə mühüm nailiyyətlərə imza atacaqlarına əminliyini ifadə edib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini təyin edilməsi münasibətilə Zafer Sırakayaya bir daha təbriklərini çatdıran və fəaliyyətində uğurlar arzulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dərin köklərə malik, dostluq, qardaşlıq və strateji müttəfiqlik zirvəsində olan Azərbaycan-Türkiyə münasibətlərinin bir çox sınaqlardan uğurla çıxdığını və nümunəvi xarakter daşıdığını söyləyib. O, xalqlarımız və dövlətlərimiz arasındakı əlaqələrin 44 günlük Vətən müharibəsindən sonra keyfiyyətcə yeni mərhələyə yüksəldiyini, Türkiyənin Azərbaycana haqq işində göstərdiyi mənəvi-siyasi dəstəyin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini və heç zaman unudulmayacağını vurğulayıb. Postkonflikt dövründə Azərbaycan ilə Türkiyənin milli maraqlara və beynəlxalq hüquq normalarına uyğun müştərək fəaliyyətinin regionda yeni geosiyasi nizam yaratdığını vurğulayan Tahir Budaqov "Bu əməkdaşlıq istər bölgədə sülh və təhlükəsizliyin təmin olunması, istərsə də işğaldan azad edilmiş ərazilərin yenidən qurulması baxımından son dərəcə önəmlidir" ,- deyə bildirib.

YAP Sədrinin müavini Azərbaycan ilə Türkiyənin siyasi gündəliyində iqtidar partiyaları arasında əməkdaşlığın dərinləşdiriləməsinin mühüm yer tutduğunu diqqətə çatdırıb. O, 2021-ci ildə YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyəti qeyd edib. YAP Mərkəzi Aparatının rəhbəri dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına xidmət edən qarşılıqlı səfərlərin davamlı xarakter daşıdığını və sinxron fəaliyyət nəticəsində diqqətəlayiq uğurların qazanıldığını vurğulayıb, hər iki ölkənin mənafeyinə xidmət edən əməkdaşlığın bundan sonra daha da məhsuldar olacağına əminliyini ifadə edib.

Tahir Budaqov Ədalət və İnkişaf Partiyasının oktyabrın 7-də baş tutacaq IV Fövqəladə Böyük Qurultayının uğurlu olacağına əminliyini ifadə edərək rəhbərlik etdiyi nümayəndə heyəti adından AK Partiyə müvəffəqiyyətlər arzulayıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkilləri - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

## "Bu layihə regionumuzun beynəlxalq əhəmiyyətini daha da artıracaq"

"Azərbaycanın Zəngilan rayonunun Ağbənd qəsəbəsindən İran üzərindən Naxçıvanla əlaqə yaratmaq planının çox əhəmiyyətli layihə olduğunu hesab edirəm". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.



Onun sözlərinə görə, bu layihə Azərbaycanı Naxçıvanla və oradan Türkiyə ilə quru yolla bağlantı yaradacaq: "O cümlədən bu yol vasitəsilə beynəlxalq daşımaların da həyata keçirilməsi nəzərdə tutulur. Bu layihənin istifadəyə verilməsi Böyük İpək Yolunun tərkib hissəsi olan Qərb-Şərq nəqliyyat dəhlizinin imkanlarını genişləndirəcəkdir. Rusiyadan və Asiyadan gələcək yüklər Naxçıvan üzərindən Türkiyəyə və Avropaya çatdırılmasında yeni imkanlar formalaşacaqdır. Beləliklə, İran üzərindən yeni marşrutun istifadəyə verilməsi ölkələrimiz üçün əhəmiyyətli olmaqla yanaşı regionumuzun beynəlxalq əhəmiyyətini daha da artıracaq".

***Ayşən Vəli***

## "Avropa Parlamenti korrupsiyalaşmış bir qurumdur"

*MÜNASİBƏT BİLDİRİLDİ*

"Avropa Parlamentinin 2023-cü il 5 oktyabr tarixli qətnaməsi heç bir hüquqi qüvvəsi yoxdur. Avropa Parlamenti əslində nüfuzunu itirmiş və hansısa bir real təsir imkanları olmayaq siyasi propoqandist qurum kimi xarakterizə edilir. Sirr deyil ki, Avropa parlamentiləri erməni lobbisinin çirkli pullarından uzun müddətdir qidalanır. Zaman-zaman Azərbaycana qarşı riyakar bəyanatlar sələndirmələrinin arxasında da bu dayanır. Avroparlemntin məlum sənədini "gic-bic" qətnamə hesab etmək olar. Təsəvvür edin, qurum özü hansısa sanksiya tətbiq etməyəcəyini deyir, guya özünü sığortalamağa çalışır, amma ayrı-ayrı Avropa dövlətlərinə sanksiya haqda düşünməyi tövsiyə edir. Avropanın əksər dövlətləri bu gün Azərbaycanın neft-qaz tərəfdaşıdır və ondan enerji asılılığı var. Siyasi baxımdan Azərbaycan tam korrekt və haqlı tərəfdir. Hansı ağlı başında olan dövlət öz suverenliyini bərpa etdiyinə, separatizmə, terrorçuluğa son qoyduğuna görə Azərbaycana qarşı sanksiya haqda düşünər?! Bu sadəcə axmaq bir çağırışdır. Hətta Fransa kimi qərəzli bir dövlətin xarici işlər naziri də bəyan etdi ki, Azərbaycana qarşı sanksiyalar gündəlikdə yer almır. Bunun özü Avropa Parlamentinin nə qədər eybəcər bir qurum olmasının əyani sübutudur". Bu sözləri SİA-ya açıqlamasında "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin icraçı direktoru, siyasi şərhçi Elşad Məmmədli deyib.



Elşad Məmmədli sözlərinə belə davam edib: "Avropa Parlamenti Azərbaycanın həbs etdiyi caniləri, terror törətdiyini, Gəncədə dinc sakinlərə raket atmaq əmrini verdiyini deyən Araik Arutyunyanı, separatizmi maliyyələşdirən Ruben Vardanyanı "siyasi xadim" kimi təqdim edir, onlara azadlıq istəyir: "Avropada hansı dövlətdə separatçı, terrorçu siyasi xadim sayılır? Belə nümunələri varsa, özlərinə tətbiq etsinlər. Azərbaycan rəsmən bəyan edib ki, onun ərazisində Dağlıq Qarabağ adlı ərazi yoxdur. Əsassız qətnamədə "Dağlıq Qarabağ" adı yer alır, ermənilərin təhlükəsizliyindən "narahatlıq" duyulur. Məgər kordurlar, kardırlar ki, reinteqrasiya prosesində ermənilər özləri heç bir təhlükəyə məruz qalmadıqlarını deyirlər?! Hesab edirəm ki, Avropa Parlamenti korrupsiyalaşmış bir qurumdur və orada ciddi islahatlara ehtiyac var. Belə bir qurum Avropa adına rəzalətdir".

***Ayşən Vəli***

# Azərbaycan hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb

## PREZİDENT İLHAM ƏLİYEV: "Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılması ölkəmizə geniş beynəlxalq dəstəyin təzahürüdür"

**"Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvü kimi müxtəlif siyasi, iqtisadi, regional inkişaf proqramlarında iştirak edir". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında bildirib.**

"Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edirik. Bizim bu təşkilata sədrliyimiz yekdil qərarla - 120 ölkənin yekdil qərarı ilə uzadılıb. Bu, həqiqətən də Azərbaycanın malik olduğu geniş beynəlxalq dəstəyin təzahürüdür", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəli bu gün Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərə uğurla ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə, son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Təsadüfi deyil ki, BMT, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Belə ki, dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Belə ki, Qoşulmama Hərəkatının Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir.

Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə dəstəkləyib, qəbul olunmuş bütün sənədlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt 2019-cu ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının iclasında qəbul olunmuş yekun sənəddə də öz əksini tapıb. Bununla da planetin təqribən üçdəiki hissəsi Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Belə ki, martın 2-də sıralarında 120 ölkəni birləşdirən Qoşulmama Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün Bakıda keçirilməsi bir daha onu göstərdi ki, Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir. Eyni zamanda, Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunduğu mühüm toplantıya ev sahibliyi etməsi ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin təzahürüdür.

### AZƏRBAYCAN PREZİDENTİ QOŞULMAMA HƏRƏKATININ SƏDRİ OLARAQ AZƏRBAYCANIN MƏQSƏDİ ƏDALƏTİ VƏ BEYNƏLXALQ HÜQUQU MÜDAFİƏ ETMƏKDİR

Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəldi. Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi.




Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsini yüksək qiymətləndirən Prezident deyib: "Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin bizə verdiyi dəstək olduqca dəyərlidir. Onlar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da, həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan Hərəkatın prinsipial mövqeyinə möhkəm sadiqliyini nümayiş etdirdilər".

Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi. Hərəkata üzv olan dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il - 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar qəbul etdilər. Bu, bilavasitə Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymətin təzahürüdür.

"Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdir. Azərbaycan pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Zirvə Toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılmışdır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi. Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir.

Belə hərəkətlər Qoşulmama Hərəkatına üzv ölkələri öz əhalisini qorumaq imkanından məhrum edir. Peyvəndlərə çıxış sahəsində fərq çox böyükdür. Beynəlxalq hesabatlara əsasən, dünyada mövcud olan peyvənd dozalarının 75 faizi 10 zəngin ölkə tərəfindən alındığı halda, aşağı gəlirli ölkələrdə peyvəndlənmə 2 faizdən azdır. Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır" - Bu sözləri Prezidentimiz öz çıxışında bildirmişdir. Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır.

Ümumiyyətlə, Prezident İlham Əliyev çıxışlarında bildirib ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində Hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcək. Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmasını göstərmək olar. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb. Beləliklə

### AZƏRBAYCAN HƏRƏKATA 4 İL SƏDRLİK ETMƏKLƏ BİR İLKƏ İMZA ATIB

Qeyd edək ki, ölkəmizin bu təşkilata verdiyi töhfə nəzərə alındı və üzv dövlətlərin təşəbbüsü ilə təşkilat tarixində ilk dəfə olaraq ötən il sədrlik müddəti uzadıldı. Azərbaycan hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb. Beləliklə də, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycan Qoşulmama Hərəkatına sədrliyə başlandığı vaxtdan təşkilat siyasi arenada söz sahibi oldu. Həmçinin, Azərbaycanın Qoşulmama hərəkatına sədrliyi dövrlərində təşkilat bir çox vacib təşəbbüslərlə çıxış etdi. Belə ki, dördüncü ili müddətində Azərbaycanın sədrliyi dövründə atılan addımların xronologiyasına diqqət yetirdikdə Qoşulmama Hərəkatının nüfuzunun, dünya siyasətində yerinin və mövqeyinin güclənməsinin əsas hədəf olduğunu görməmək mümkün deyil. Məhz buna görə də Prezident İlham Əliyev BMT sistemində islahatların vacibliyi məsələsini qaldıraraq, dünya düzəninin yenidən qurulduğunu böyük inamla bəyan etdi. İndi bəşəriyyət "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Prezident İlham Əliyev çıxışlarında bir daha dünyaya sülh mesajları verdi. Azərbaycan uzun illər, hətta bu gün də ikili standartlar siyasətindən, haqsızlıqdan əziyyət çəkən ölkə kimi çalışır ki, dünyada ədalət bərpa edilsin. İmperialist və müstəmləkəçi siyasət yürüdən ölkələr bu siyasətdən əl çəkməlidir: "Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyəti etiraf etməyə çağırırıq".

Göründüyü kimi, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzunun daha bir göstəricisi və Onun şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Bəli, bu gün Ona inanırlar və irəli sürdüyü hər bir təklifləri bilavasitə dəstəkləyirlər. Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha bir il uzadılması təşəbbüsünün irəli sürülməsi amili də bu kimi mühüm, prinsipial gerçəklikləri növbəti dəfə təsdiqləmiş olur.

***RƏFİQƏ KAMALQIZI***

# "Azərbaycan Qərb klubu qarşısında əyilmədi və gücünü göstərdi"

## Aleksandr Razuvayev: "Fransa İrəvana silah tədarük etməyə hazırlaşır, bu silahlarla nəsə etməyə cəhd etmək Ermənistanın könüllü intiharı olacaq"

**Nüfuzlu rusiyalı politoloq Aleksandr Razuvayev Azərbaycan Prezidentinin İspaniya Qranadasında Ermənistan baş naziri ilə görüşə getməkdən niyə imtina etməsi və bununla bağlı Bakının Qərbdən nə gözləməsi barədə Moskva-Bakıya müsahibəsində maraqlı məqamları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**



*- Azərbaycan Prezidenti İspaniyada Ermənistanın baş naziri, Fransa prezidenti, Almaniya kansleri və Avropa Şurasının rəhbərinin iştirakı ilə Avropa Siyasi Sammiti çərçivəsində keçirilməsi planlaşdırılan beştərəfli görüşdə iştirakdan imtina edib. Mənbələrin izah etdiyi kimi, bu, Parisin yenidən anti-Azərbaycan bəyanatları və danışıqlarda balanslaşdırma üçün Türkiyənin də iştirakı təklif olunduğu halda onun iştirakına razı olmamaları ilə bağlı baş verib. Parisin kobudluğu yeni doğulmuş bir tendensiya deyil. Sizcə, Əliyev bu dəfə görüşdən niyə imtina etdi?*

- İlham Əliyevə nəinki Makron və ya Şolz, mahiyyətcə Aİ ilə görüşdən imtina etməyə imkan verən əsas amil Qarabağın birdəfəlik onun nəzarətinə qaytarılması oldu. Budur, Qarabağ mövzusu bağlıdır. Separatçılar Azərbaycanın antiterror tədbirlərinə başlamasından bir gün sonra təslim olub və separatçı rejimin özünü ləğv etdiyini bəyan ediblər. Möhtəşəm hadisədir. Azərbaycan parlaq ölkədir və parlaq döyüşçüləri var. Buna görə də müzakirə ediləcək başqa bir şey yoxdur. Qarabağ məsələsi bağlanıb.

Avropa İttifaqı, Almaniya və Fransa (Əliyev və Paşinyanla görüşə hazırlaşanların hamısı) son aylarda Azərbaycan əleyhinə bəyanatlarla çox fəallıq nümayiş etdiriblər. Bu gün Avropa Parlamenti Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağıran qətnamə qəbul edib. Bu əsas rol oynadı- niyə sənə qarşı olanlarla görüşməlisən ki. Bu vasitəçilər qərəzlidir: vasitəçi sülhə çağırmalı, vəziyyətə qərəzsiz baxmalıdır, Aİ, Fransa, Almaniya isə, sadəcə olaraq, Yerevanın lobbiçiləridir.

Avropa Siyasi Birliyinin sammiti layihəsinin təşəbbüskarı olan Makrona gəlincə, Bakı, sadəcə olaraq, imtinası ilə onu hamının gözü qarşısında rəzil etdi.

Onların bərabər məsafəli vasitəçi görünüşünü belə ortaya qoymamaları- bu, onların daim etdikləridir. Qranadadakı görüşdə təzyiq olacağı aydındır. Azərbaycan təzyiqlərə boyun əyməzdi. Onda bütün bunları dinləməyin nə mənası var idi? Ermənistandan fərqli olaraq Azərbaycan suveren ölkədir. Bakı isə bunu bir daha əyani şəkildə nümayiş etdirdi. Ümumiyyətlə, Azərbaycanın Ermənistan-Azərbaycan nizamlanmasında artıq vasitəçilərə ehtiyacı yoxdur. Azərbaycan-Ermənistan münasibətləri artıq eksklüziv ikitərəfli səviyyəyə yüksəlir.

İlham Əliyev daha bir qələbə qazanıb. Və çox yüksək fərqlə qalib gəldi. Tarixi qələbə. Və döyüşdən sonra yumruqlarını yelləmirlər. "Matç" bitmişdir. Tablodakı hesab Azərbaycanın xeyrinədir.

*- Amma məlumdur ki, bir çox ölkələr prinsipcə, hansısa yolla Qərblə ziddiyyət təşkil etməkdən qorxurlar və Qərbin daxilində öz iyerarxiyası var- nə mümkündür, nə mümkün deyil. Qərb istədiyi adama sanksiya tətbiq edirsə, deyə bilərikmi ki, Əliyev Avropa İttifaqına qarşı belə nümayişkaranə addım atıbsa, ona qarşı təzyiqləri yatırmaq üçün əlində alət var?*

- Müəyyən dərəcədə, bəli. Hazırda dünya yenidən formatlaşdırılır. Və əvvəllər hamı (hətta indi də çoxları) Avropaya və ABŞ-a nə isə deməkdən qorxurdu. Azərbaycan artıq heç kimdən qorxmur. O, nəhayət ki, bu gün güclənən, Qərb hegemonluğuna qarşı çıxan kluba qatıldı.

Azərbaycanın enerji daşıyıcılarının Avropaya nəqlinin vacibliyini nəzərə alan Qərb Bakıya qarşı kəskin addımlar və ya real sanksiyalar (özlərinin sevimli üsulunu) tətbiq etməyəcək. Burada da Azərbaycan qalib gəldi. Bu, o deməkdir ki, Əliyevin əlində güclü alətlər var və ona cavab verilməyəcəyinə inam var.

Bununla da, Azərbaycan beynəlxalq statusunda bir pillə yüksəlmişdir. Mütləq suveren bir ölkə kimi, indi gördüyümüz kimi, Avropa İttifaqının rəyinə məhəl qoymamaq olar. O, enerji bazarındakı mövqeyini tamamilə adekvat qiymətləndirir.

Bundan əlavə, bütün bu illər ərzində Azərbaycan öz ətrafında Yer kürəsinin müxtəlif yerlərində əməkdaşlıqda maraqlı olan dost, sadiq, etibarlı dövlətlər dairəsi yaratmışdır. O, bunu özünəməxsus etibarlılığı və konstruktiv yanaşması ilə qəbul edib, konkret ölkələrə lazım olanı təklif edib. Sadəcə olaraq, o, bütün bu illəri öz statusunu bütün istiqamətlərdə inkişaf etdirməyə, mövqeyini möhkəmləndirməyə sərf etdi. Və o, tamamilə fərqli, müxalif qüvvələrlə statusunun artmasına ustalıqla nail oldu. Yalnız öz maraqlarına riayət etməklə.

Belə kiçik, lakin son dərəcə güclü bir ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi qlobal miqyasda tarixi hadisədir. Supergüclər bəzən buna nail ola bilmirlər. Yeri gəlmişkən, Azərbaycan artıq nümunə kimi göstərilir- ondan çox şey öyrənmək olar, o cümlədən ərazi bütövlüyünün bərpası məsələsində.

*- Əliyev nəinki Qranadadakı görüşdən imtina etdi, prinsipcə sammitə getməkdən də imtina etdi. Bu isə daha ciddidir... Amma Paşinyan gedib Zelenski ilə görüşüb...*

- Qoy görüşsün... Bu, Moskvada növbəti qıcıq yaradacaq. Avropa Siyasi Birliyinin sammiti çərçivəsində o, Avropa liderlərinin dəstəyini almağa və kömək istəməyə davam etməlidir ki, bunu artıq edir. İndi Fransa da Ermənistana rəsmən silah tədarük etməyə hazırlaşır. Ola bilsin ki, İrəvan yenidən Fransa silahları ilə nə isə qazanmağa cəhd edəcək. Reallıqla barışmırlar, nə etsinlər... Bu intihardır. Əgər belə bir istək varsa, intihar... könüllü bir şeydir. Paşinyan Rusiyadan nə qədər uzaqlaşsa, Azərbaycanla daha yaxından "tanış olacaq".

*- Qarabağ məsələsi bağlananda və Rusiyanın nəqliyyat-logistika layihələrini tam inkişaf etdirməsi lazım olanda Bakı bildirdi ki, Ermənistan Zəngəzur dəhlizinə razılıq verməsə və ya bununla bağlı qaldırılan məsələləri həll etməsə, Azərbaycan İrandan keçəcək alternativ marşrutdan istifadə edəcək.*

- Qarabağ problemi Rusiyanın Azərbaycanla iqtisadi inteqrasiyasına çox mane olub. Problem aradan qalxdı və indi yaşıl işıq yanır. Əgər Azərbaycan Ermənistandan yan keçərək Zəngəzur dəhlizinə davam etsə, Ermənistan bir ölkə olaraq yenə heç nə ilə qalar. İqtisadiyyatı inkişaf etdirmək üçün ona çoxdan bütün ticarət yollarını açmaq lazım idi. Və beləliklə, heç olmasa, vətəndaşlarının həyat səviyyəsini yüksəldir. Amma yox, bunu etmək istəmirlər.

*- Paşinyan nəhayət, sülh müqaviləsini imzalayacaq?*

- Məncə, bu baş verməsə, onu əzəcəklər. Və o, Rusiyanın vasitəçiliyi ilə bunu imzalayacaq. Baxmayaraq ki, Qərb Rusiyanın vasitəçiliyi ilə bunun baş verməməsi üçün əlindən gələni edəcək. Yəni hər şey öz qaydasına düşəcək (və düşür)- üçtərəfli Putin-Əliyev-Paşinyan formatında. Yenə də Rusiya bu tarixi nizamlanmada öz mövqeyini qoruyub saxlaya bildi.

***Tərcümə - Elçin Bayramlı***

# "ASALA Fransada fəaliyyətini sərbəst davam etdirir"

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*




"Ermənilər terroru, qətlləri, insanlara qarşı təcavüzü, xəyanəti, qarşıdurmalar yaratmağı özlərinin bir qəhrəmanlıq nümunəsi kimi tarixən təbliğ etmiş, bundan qürur duymuş və övladlarını da bu ruhda tərbiyələndirmişlər." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, ən qədim və mədəni xalq xülyası ilə yaşayan, ancaq dünyada vəhşi, qaniçən, dönük bir toplum kimi tanınan, başqalarının kölgəsinə sığınıb yazıq, məzlum obrazı yaradan ermənilər havadarlarının köməyi ilə dirçələndə tanınmaz olublar, quduzlaşıblar və nəinki başqalarına hətta onları yedizdirənlərə, torpaq və yurd verənlərə də düşmən kəsiliblər, arxa çeviriblər.

"Erməni millətçiləri tarixən azərbaycanlıları və türkləri özlərinə düşmən hesab ediblər. Hər an onların qanını içməyə hazır olduqlarını açıqca söyləsələr də və imkan olan kimi bunu etsələr də, ancaq digər xalqlara da nifrətlərini gizlətməmişlər. Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan, Qarabağ torpaqlarını birləşdirməklə böyük bir ərazidə "Böyük Ermənistan" yaratmaq, Gürcüstan ərazisinin bir hissəsini zəbt etmək, digər dövlətlərin ərazilərində muxtariyyət formalaşdırmaq məqsədi ilə ermənilər uzun illər ən çirkin əməllərə əl atmışlar, onlara dəstək verməyənləri, haqq-ədaləti müdafiə edənləri özlərinə düşmən saymışlar və onlardan qisas almağa çalışmışlar. Bu məqsədlə ermənilər bir çox terrorçu qruplaşmalar yaratmışlar ki, onlardan da Daşnaksütyun partiyasının təşkil etdiyi "Ermənistanın Azadlığı uğrunda Gizli erməni Ordusu" (ASALA) terror təşkilatı hal-hazırda bir neçə ölkədə fəaliyyətini davam etdirməkdədir. Bu terror təşkilatı türkləri və azərbaycanlıları əsasən hədəf seçməsinə baxmayaraq, digər xalqlara qarşı da amansız qətllər həyata keçirməkdədir. Öz fəaliyyətini Fransada daha çox genişləndirən ASALA-ya ölkədə sərbəst hərəkət etmək üçün hər cür imkan yaradılmışdır ki, terror təşkilatı da bu qayğıdan hərtərəfli bəhrələnməkdədir.

Qərargahı Beyrutda, təlim-məşq bazaları Suriyada yerləşən terror təşkilatı öz fəaliyyətini ABŞ, Yunanıstan, Cənubi Kipr, İsveçrə və Kanadada davam etdirməklə dinc insanlar üçün təhlükə yaratmaqdadır. Son illər bir çox ölkələrdə Türkiyənin və Azərbaycanın səfirliklərinə edilən basqınlar, baş verən terror halları bunu deməyə əsas verir. ASALA Azərbaycanı və Türkiyəni dəstəkləyən ölkələrə qarşı da düşmən və amansız mövqedədir. İrəvanda yəhudi sinaqoquna sentyabrın 3-də hücumu da bu terror təşkilatı təşkil etmişdi. Terrorçular açıq bəyan etmişlər ki, yəhudilər Ermənistan dövlətinin və erməni xalqının qatı düşmənləridir. Onlar ABŞ, Avropa və başqa ölkələrdə də sinaqoqları yandıracaqlarını, yəhudiləri məhv edəcəklərini bildirmişlər. Əlbəttə, bu vəhşiliklərin kökündə İsrail dövlətinin Azərbaycana dost olması, iki ölkə arasında münasibətlərin möhkəmlənməsi və yəhudi xalqının dövlətimizin ədalətli mübarizəsini dəstəkləməsidir. Terrorçular heç bir beynəlxalq normaya və insanlığa uyğun gəlməyən şəkildə bəyanat vermişlər ki, dünya ölkələrində yaşayan yəhudilərə qarşı müharibə aparılacaq və heç bir yəhudi Avropaya, Amerikaya, Kanadaya, Gürcüstana gələrkən özünü təhlükəsiz hiss etməyəcək.

Göründüyü kimi, Ermənistanda antisemitizm meylləri gündən-günə güclənir və terrorçular dünya xalqlarına meydan oxuyurlar. Bu meyllər sözsüz ki, bir çox xarici dövlətlərin dəstəyindən qaynaqlanır və şaxələnir. Fransanın bu dövlətlər arasında birincilik qazanması şübhəsizdir. Çünki təcavüzkar Fransanın Ermənistana, terrorçulara daimi yardım göstərməsi bu dövlətin müstəmləkəçilik siyasətindən irəli gəlir. Fransa dövlətinin rəhbərləri, siyasi dairələri Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan, şəhər və kəndlərimizi xaraba qoyan, bir milyondan çox insanı qaçqın vəziyyətinə salan Ermənistanı 30 il dəstəklədilər, bir dəfə də olsun Azərbaycanın haqlı mövqeyinə münasibət bildirmədilər və daim təcavüzkarın yanında olduqlarını nümayiş etdirdilər. Onlar hər vəchlə xalqımızın səsini batırmağa, düşmənə haqq qazandırmağa çalışdılar. Bu gün də bu çirkin əməllər davam etdirilir. Fransa Ermənistandan daha çox Azərbaycana düşmən mövqedədir. BMT Təhlükəsizlik Şurasında, beynəlxalq tədbirlərdə, görüşlərdə, müxtəlif ölkələrə səfərlərdə başda Fransa prezidenti Emmanuel Macron olmaqla, parlament üzvləri, hökumət nümayəndələri Azərbaycanı bir təcavüzkar kimi qələmə verir, torpaqlarını erməni faşistlərindən azad edən dövlətimizin və xalqımızın adına olmazın böhtanlar, iftiralar söləyirlər. Fransa bildirir ki, "Ermənistanın sərhədləri bizim üçün müqəddəsdir". Fransanın xarici işlər naziri K. Kolonna Ermənistana səfəri zamanı deyir ki, Fransa Ermənistana fransız silahlarının tədarükünə başlamaq imkanı verəcək, hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalamağa da rəsmi razılıq verib."- deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Ermənistanın hərbi-siyasi rəhbərlərinin qanlı cinayətləri

## 9 okyabr 2020-ci il - Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi… işğaldan azad olundu

Üç il əvvəl Azərbaycan ordusu qızğın döyüşlərdə haqq savaşında torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşurdu. Sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı qələbə xəbərlərini eşidir və tezliklə zəfərimizin qazanılacağı günün lap yaxında olduğuna inanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu gücünü döyüş meydanında düşmənə göstərərək 30 ilə yaxın bir müddətdə işğalda olan torpaqlarımızın azad olunması uğrunda haqq savaşında vuruşurdu. Cənab Prezidentin həmin günlərdə xalqa müraciətlərində hər gün ordumuzun daha da irəliləyərək, yeni kənd, qəsəbə və şəhərlərin azad olunması ilə bağlı məlumatları bizi doğma torpaqlarımıza daha da yaxınlaşdırırdı. Həmin tarixə qədər Azərbaycan ordusu bir sıra əraziləri işğaldan azad etmişdir. Vətən müharibəsinin ilk günlərində Hadrutun azad edilməsi Azərbaycan Ordusunun döyüş meydanındakı üstünlüyünü daha da gücləndirdi. Çünki Hadrut, ilk növbədə, ermənilərin daha çox möhkəmləndiyi strateji mövqe olmaqla yanaşı, həm də düşmənin Füzuli və Cəbrayıl istiqamətlərinə əlavə qüvvə göndərməsi üçün mühüm bir ərazi idi. Müzəffər Azərbaycan Ordusunun planlı və peşəkar əməliyyatı erməniləri cəbhənin hər bir istiqamətində məğlub etdiyi kimi, Hadrutda da darmadağın olmasına gətirib çıxardı. ”Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı”, - bildirən Prezident qeyd etmişdir ki, nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm: ”Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində”. Cəbrayıl şəhərindən sonra Hadrutun azad olunması hərbi əməliyyatlarımızın uğurla davam etdirilməsi baxımından mühüm önəm kəsb edirdi.




### AĞDAMIN İŞĞAL ALTINDA OLMAYAN YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ TERROR

Ermənilər tarix boyu xalqımıza qarşı təcavüzkarlıq etmiş, terror aktları törətmişdilər. 44 günlük Vətən müharibəsində biz, eləcə də bütün dünya bunun şahidi oldu. Ermənistan döyüş meydanında uduzduğunu gördükdə cəbhə zonasından kənarda yerləşən ərazilərimizi raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlər törədirlər. Bütün bunların planı əvvəldən hazırlanmışdır. Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmağa davam edirdi. Oktyabrın 7-də gecə saatlarından başlayaraq Ağdam rayonun işğal altında olmayan yaşayış məntəqələri intensiv atəşə tutulurdu. Nəticədə Xındırıstan kənd sakini 1945-ci il təvəllüdlü Əliyeva Zərifə Qamboy qızı həlak oldu, vətəndaşlara məxsus 1 ev dağıldı, 10 evə, 4 yardımçı tikiliyə, 114 nömrəli köçkün ümumi məktəbinə, elektrik və qaz təsərrüfatlarına ziyan dəymiş oldu. Dörd baş iribuynuzlu, 41 baş xırdabuynuzlu heyvan, 2 baş at tələf edildi.





Əlbəttə ki, beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu cinayətlərə görə tam məsuliyyət daşıyır.

İşğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və mülki əhalini hədəfə almaqla 2020-ci ilin oktyabrın 9-da saat 14 radələrindən başlayaraq, Ağdam rayonunun Quzanlı qəsəbəsini müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutması nətcəsində Quzanlı qəsəbə sakinləri 1979-cu il təvəllüdlü Hüseynov Əlizamin Cavid oğlu, 1978-ci il təvəllüdlü Zeynalov Elçin Əli oğlu, 1984-cü il təvəllüdlü Məmmədova Lalə Məhəmməd qızı və 1992-ci il təvəllüdlü Rzayev Elçin Hənifə oğlu qəsəbə ərazisinə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.





### ”MÜHARİBƏ DÖVRÜNDƏ KİMİN KİM OLDUĞUNU, KİMİN VİCDANLI DÖYÜŞ APARDIĞINI VƏ KİMİN YATMIŞ ŞƏHƏRLƏRƏ ALÇAQCASINA HÜCUM ETDİYİNİ HAMI GÖRDÜ”

Bütün törədilən bu və ya digər əməllərə baxmayaraq, Azərbaycan haqq işində israrlı idi. 2020-ci ilin oktyabr ayında cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən bir neçə dəfə ayrı-ayrı zamanlarda bombalanması erməni vəhşiliyinin bir nümunəsi olaraq dünya ictimaiyyətinin gözü qarşısında baş verdi. Gəncəyə ilk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənarda edilən ilk ciddi hücum idi. Qeyd edək ki, birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri vuruldu. Daha sonra Gəncə bir daha raket hücumuna 5 oktyabrda məruz qaldı. Hücum nəticəsində 3 mülki şəxs yaralandı. Üçüncü raket hücumu oktyabrın 8-də oldu. Bu gecə saatlarında Gəncəyə endirilən ilk raket zərbəsi idi. Nəticədə ölən və yaralananlar olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi, həlak olan və yaralanan olmadı. Düşmənin silahlı qüvvələrinin növbəti dəfə 11 oktyabr tarixində gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı. Çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Ermənistan silahlı qüvvələri ”Toçka-U” raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı məntəqəni atəşə tutdu. ”Müharibə dövründə kimin kim olduğunu, kimin vicdanlı döyüş apardığını və kimin yatmış şəhərlərə alçaqcasına hücum etdiyini hamı gördü”, - deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir.

### ERMƏNİSTANIN FAŞİST MAHİYYƏTİ

”Ermənistan ordusunun münaqişə xəttinin kənarındakı Azərbaycan şəhərlərini ballistik raketlərlə hədəfə alması onların acizliyini göstərir. Bu, Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətidir. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır”- deyən dövlətimizin başçısı düşmənin raket atəşinə tutduğu Gəncə və Mingəçevir şəhərlərinin döyüş bölgəsindən uzaqda yerləşdiyini diqqətə çatdıraraq ”Döyüş bölgəsinə yaxın olan şəhərlərimiz hər gün atəşə tutulur. Ən yaxın bölgə Tərtər bölgəsidir və Tərtər şəhərinə gündə mindən iki minə qədər mərmi düşür və bunun əsas məqsədi mülki şəxslərə qarşı törədilən zorakılıqdır. Bu, bir daha Ermənistanın faşist mahiyyətini göstərir, rejimin faşist mahiyyətini göstərir. Ancaq bu, Azərbaycan xalqını qorxutmur, bunun heç bir təsiri yoxdur. O bölgələrdə, o şəhər və kəndlərdə yaşayan soydaşlarımız orada möhkəm dayanıblar. Onların bir sözü var ki, Vətən sağ olsun, torpaqlar tezliklə işğaldan azad edilsin. Onlar sona qədər o yerlərdə qalacaq və ordumuza mənəvi dəstək verəcəklər”, - deyə bildirmişdir.

Ordumuzun qətiyyətli əks-hücumu qarşısında aciz qalan Ermənistan Azərbaycanın dinc əhalisinin kompakt yaşadığı ərazilərdə, habelə Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli, Yevlax, Goranboy və Beyləqan və Cəbrayıl rayonlarını raket və artilleriya atəşinə tuturdu. Azərbaycan bütün bunlara baxmayaraq, ərazi bütövlüyünü bərpa etdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Kişilərin ikinci telefonu: İŞ, YOXSA XƏYANƏT?

***Bir çoxları deyir ki, qadınların kişilərin telefonunu yoxlamaq kimi adətləri var. Amma düşünürəm ki, bu, yalnız xanımlarda deyil, kişilərdə də belədir. Elə kişilər var ki, onlar da ən az qadınlar qədər telefon yoxlamaq vərdişinə sahibdir.***

Bəs, nədir insanları şübhəyə salan? Niyə telefonların içindəkilər qarşı tərəfə bu qədər maraqlıdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Qadınlar düşünür ki, kişidən ala bilmədiyi cavabı ona telefon verəcək. Yəni, bu vəsilə ilə evliliyində problemin nə olduğunu aşkara çıxaracaq. Yaxud kişiyə olan şübhəsinin cavabını telefonun içindəkilər verəcək.

Burada güvən məsələsi də var. Güvən zədələndikdən sonra telefonlar yoxlanmağa başlanır.

Tanıdığım bir cütlük var və 25 ildir ailəli-



dirlər. Qadın deyir ki, hələ bu günə qədər yoldaşım bir dəfə belə telefonumu yoxlamaq məqsədi ilə əlinə almayıb. "Açığı, mən onun telefonunu yoxlamaq istəmişəm, amma şifrədə olub. O, nə mənim telefonumu yoxlayır, nə də öz telefonunun yoxlanmasını sevir".

Daha bir cütlük isə 15 illik evlidir. Xanım deyir ki, yoldaşım hər dəfə fərqli bəhanələrlə telefonumu alıb yoxlayır. "Hətta anamla, bacımla, əmim qızı-oğlu ilə olan mesajlara kimi bircə-bircə oxuyur. Ortada heç bir səbəb yoxkən daim şüphə içindədir. Daha bu hərəkətlərdən təngə gəlmişəm".

Kişini, yaxud qadını qarşı tərəfin telefonunu yoxlamağa təşviq edən bir sıra səbəblər var. Məsələn, (bu daha çox kişilərə aiddir) əgər kişi telefonunu evə gələndə daim söndürürsə, telefonu ortalıqda saxlamırsa, hətta ayaq yoluna belə telefonla gedirsə, bunlar bir çox qadında şübhə yaradır. Elə bir çox kişilər də bunun həqiqət olduğunu nadir hallarda da olsa etiraf edir.

Tərəflər arasında, əlbəttə, güvən önəmlidir. Amma insanı şübhəyə salacaq vəziyyətlər baş verdikdə söz-söhbətin yaranması da qaçılmazdır.

## Bəs, kişilər bu barədə nə düşünür?

Əldə etdiyimiz cavablara görə bir çox kişilər bu fikirdədir ki, əgər qadın kişinin tele-



fonunu yoxlayırsa, mütləq oradan bir əmma tapacaq. Düşünürəm ki, bu kişilərin qabaqdan gəlmişliyidir. Yəni, öncədən xəbər edir ki, əgər nə isə axtarsan, tapacaqsan və ona görə də yaxşısı budur ki, heç axtarma.

## Qadınlar hansı fikirdədir?

Burada qadınlar üç kateqoriyaya bölünür. Birinci qrup nə isə tapdıqda həmən an reaksiya verir, yaxud bir müddət məsələni araşdırır ki, düzgün nəticəyə gəlsin. Bu tip qadınlar telefonda ciddi bir şey tapdıqda boşanmaya qədər gedib çıxır.

İkinci tip isə tapdığını görməzdən gəlir,



içinə atır və bu barədə kişiyə heç bir kəlmə etmir. Məncə, bu, daha ağrılıdır. Tapdığı ciddi bir şey də olsa "ailəsini qorumaq" üçün susub oturur.

Üçüncü tip qadınlar isə tapır və bunu kişiyə bildirir. Dava-dalaş salır, amma boşanmır. Başqa qadınların isə bu tip qadınlara reaksiyası belədir: "Əgər susub oturacaqdınsa, boşanmayacaqdınsa, niyə tapdığını



kişiyə deyib özünü hörmətdən saldın. Əvvəl sənə hörmət edib sayırdısa, indi onu da etməyəcək". Təbii ki, insanları belə məsələlərdə qınamaq olmaz. Hər kəs eyni şərtlərlə doğulub yaşamır. Hər kəsin həyatı, düşüncəsi, sevgi və ailə anlayışı fərqlidir.

## Kişilər ikinci telefon yoluna niyə əl atır?

Daim yoldaşları tərəfindən nəzarətdə olan bir çox kişilər ikinci telefon alternativinə üz tutur. Bəziləri bu ikinci telefonu avtomobilində, bəziləri işdə, digəri də evdə bir yerdə gizlədir. Hətta bəziləri də şübhə çəkməmək üçün elə iki telefonla da evə aşkar şəkildə gəlir. Təbii ki, bu sadalananları bütün kişilərə şamil etmək olmaz. Yəni, həqiqətən iş üçün ikinci telefona ciddi şəkildə ehtiyacı olan kişilər də var. Amma gəlin etiraf edək ki, 99 faiz vəziyyət belədir.

## Mütəxəssislər nə deyir?

Mütəxəssislər söyləyir ki, əgər ər-arvad arasında bu barədə bir problem varsa və ortada həqiqətən gizli bir şey yoxdursa cütlüklər telefonlarını ortaya qoysunlar. Yəni, əgər kişinin gizlini yoxdursa, nədən narahatdır? Qoysun telefonu ortaya və qadın da zatən heç nə tapmayacaqsa, baxsın da.

## Bəzi kişilər telefonun yaddaşına qadın nömrələrini necə qeyd edir?

Əvvəl sevgililərinin nömrəsini telefona qeyd etməyib, cibində kağızda yazılı saxlayan bəzi kişilər artıq bu nömrələri telefonla-



rında kişi adıyla qeyd edirlər. Məsələn, biri Samirə adına Samir yazır, biri Aygün adına Aydın yazır, digəri sürücü, satıcı, kuryer, usta və s. adlarla qadınları telefona qeyd edir.

Burada da kişilər iki kateqoriyaya bölünür. Birinci qrup bunu həqiqətən gizli işi olduğu üçün edir. İkinci qrupun isə həyat yoldaşı o qədər qısqanc olur ki, kişi bilir ki, nə desə də ona inanmayacaq. Ona görə də bu yolu seçir. Amma yenə də 90 faiz birincini edənlər çoxluq təşkil edir.

## Kişilər özlərini necə ifşa edir?

Bir çox mənbələr göstərir ki, əgər kişi qadına normalda olduğundan daha çox diqqət və qayğı göstərirsə, deməli bu işin içində bir iş var. Bəzi kişilər qadının vəziyyətdən xəbəri olmasın deyə bu yolu seçir. Əvvəl sizi heç düşünməyən kişi birdən-birə hədiyyələr alırsa düz düşünürsünüz. Günahkarlıq hissi kişiləri belə şeylər etməyə vadar edər. Əlbəttə bunu edən hər kişi aldadır demək istəmirik, ancaq bir çox hallarda belədir.

Kişilər səhv edərkən əməllərini yumaq üçün qadını günahkar çıxarırlar. Onları bir az sıxışdırdıqda "səninlə danışmaq olmur" deyib, özlərinə haqq qazandırmağa çalışırlar. Hətta sırf söhbətdən qaçmaq üçün bunu bəhanə edib küsən kişilər də az deyil.

**Sosioloq Lalə Mehralı bildirir ki, ailədə kişi və ya qadının nəinki ikinci telefonu olmalı, mövcud telefonunda kod belə olmamalıdır:** "Ailə nə deməkdir? Birlik, bütövlük, şəffaflıq, aşkarlıq. Tərəflər arasında sirr olmamalıdır, nəinki ikinci telefon məsələsi.



Əgər tərəflərdən biri telefonuna kod qoyursa bunu həyat yoldaşına deməli, kodqoyma səbəbini izah etməlidir. Telefonda gizlətmək məqsədi ilə nəyinsə mühafizəsi ola bilər, amma həyat yoldaşından nəyisə gizlədirsənsə, demək ki, ortada yalan var. Belə ailə normal deyil.

İkinci telefon işlədən, evdə yox maşında, iş yerində saxlayan kişi bu davranışını qarşı tərəfin gözü ilə analiz etsin və onun etdiyini qadının edə bilmə ehtimalını fikirləşsin. Nəticəsi ilə razılaşacaqmı, onu düşünsün".

**Əməkdar jurnalist Mətanət Məmmə-**



**dova isə fikirlərini bu cür ifadə edib:** "Ümumiyyətlə, ikinci telefon işlətməyi istər qadın, istərsə də kişi üçün anormal hal hesab edirəm. Telefonlarda iki nömrədən istifadə olunan təqdirdə iki telefona ehtiyac yoxdur. Bu, istər-istəməz sual yaradır: nə üçün ikinci telefon? Hələ üstəlik, telefona kod qoyulması isə daha çox şübhə doğurur. Tərəflər arasında bir-birinə qarşı şübhə yaradır. Bəzi hallarda kod qoyula bilər, lakin bunu da hər iki tərəf anlamalıdır. Əslində, inam o qədər gözəl hissdir ki, bu varsa, yetər. Yoxdursa tərəflər bir-birində nə isə axtaracaq, iki telefon işlətməyi də, kod qoymağı da mənfi tərəfə yozacaqlar. Nəticə etibarilə, həyatı doğru yaşayaq ki, sabah səhvlərimiz qarşısında cavab verməli olmayaq".

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq jurnalist Elçin Bayramlı ailə üzvləri arasında telefonla bağlı problemlərin olmamasını vurğulayıb:** "Belə ki ailə daxilində heç kim telefonuna kod qoymamalıdır, qoyarsa belə digərinə bu kodu deməlidir. Əgər belə etmirsə, artıq heç bir ailədən söhbət gedə bilməz, demək ortada



gizli işlər var. Bununla yanaşı, ər və arvad bir-birinin telefonlarını yoxlaması, izləməsi də artıq o deməkdir ki, burada normal, sağlam ailədən söhbət belə gedə bilməz. İnamsızlıq, etibarsızlıq olan yerdə həqiqi ailə ola bilməz. Əgər birinə inanmırsansa, etibar etmirsənsə onunla ailə qurmamalısan. Əgər ailə qurduqdan sonra bu hallar olursa, buna aydınlıq gətirməlidir. Bunu etməzsə, artıq boşanmaq zəruridir. Çünki burada artıq ailə yoxdur, sadəcə, bir evdə yaşamaq var. Ailə tamam başqa şeydir, burada qarşılıqlı inam, sevgi, fədakarlıq yoxdursa, bu, artıq ailə yoxdur deməkdir. Ümumiyyətlə, ailənin nə olduğunu dərk etmədən ailə qurmamaq daha yaxşıdır".

Son olaraq qeyd edim ki, əgər kişilər qadınların onların telefonuna baxmağına icazə vermirsə, bunu sevmirsə, o zaman özləri də buna əməl etsələr yaxşı olar. Hörmətdirsə, güvəndirsə, özəldirsə qoy bunlar qarşılıqlı olsun. Yəni, əgər baxılmırsa hər iki tərəfin telefonuna baxılmasın. Nə qadının, nə də kişinin.

***Ayşən Vəli***

# "Təhsilli qadın: təhsilli ailə, təhsilli cəmiyyət"

## *Bu mövzuda tədbir keçirilib*





**Oktyabrın 6-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Təhsilli qadın: təhsilli ailə, təhsilli cəmiyyət" mövzusunda tədbir keçirilib.**

Əvvəlcə Yasamal rayonunda yerləşən Şəhidlər Xatirə Kompleksinin və Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb. YAP Yasamal rayon təşkilatında keçirilən tədbirdə əvvəlcə Dövlət Himni səsləndilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə giriş sözü ilə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, təhsilli qadınların cəmiyyət həyatında rolu müstəsna əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə gəldikdən sonra Azərbaycanda cəmiyyətin inkişafında qadınların rolu artmağa başlayıb. Müstəqil Azərbaycan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və konvensiyalara qoşulmaqla yanaşı, ölkə daxilində də qadınların hüquq və azadlıqlarının qorunması istiqamətində bir çox normativ hüquqi aktlar qəbul edib.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva isə qeyd edib ki, bu gün Azərbaycan özünün yüksək inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıb. Bu da Heydər Əliyev siyasətinin təntənəsidir. Onun sözlərinə görə, ölkəmizin inkişafında qadınlar böyük rol oynayırlar. Bu il Azərbaycanda "Heydər Əliyev İli"nin qeyd olunduğunu xatırladan Z.Musayeva deyib ki, Ulu Öndərimizin anadan olmasının 100-cü ildönümü xalqımız üçün əlamətdar hadisələrlə zəngindir.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva bildirib ki, Ulu Öndər Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli zərurəti vahid dövlət idarəetmə orqanının təşkilini şərtləndirib. Bununla əlaqədar olaraq Azərbaycan Prezidenti İlham Əliyevin 6 fevral 2006-cı il Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirir. A.Sofiyevanın sözlərinə görə, Dövlət Komitəsi Elm və Təhsil Nazirliyi ilə qızların təhsilinə dəstək məqsədilə birgə layihələr həyata keçirir.



Uğurlarla yanaşı bəzi problemlərin olduğunu deyən Komitə sədrinin müavini bu problemlər sırasında bölgələrdə erkən nikah və qızların təhsildən yayındırılmasını vurğulayıb. O, bu istiqamətdə davamlı olaraq maarifləndirmə işlərinin aparıldığını diqqətə çatdırıb.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Siyasətin fəlsəfəsi və sosiologiyası" şöbəsinin müdiri, professor Rəna Mirzəzadə isə çıxışında cəmiyyətimizdə gender bərabərliyinin əhəmiyyətindən bəhs edib.

Tədbirdə daha sonra Elm və Təhsil Nazirliyinin sektor müdiri Fuad Qarayev, Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, Milli Məclis Aparatının Ailə, qadın və uşaq məsələləri komitəsinin məsləhətçisi Aynur Veysəlova-Abbasova, 44 günlük Vətən müharibəsi şəhidi polkovnik-leytenant Nail Orucovun həyat yoldaşı, BDU-nun filologiya fakültəsinin I kurs tələbəsi Nigar Ağamalıyeva, Vətən müharibəsi şəhidi, Silahlı Qüvvələrinin kiçik giziri Şahmar Mənəfovun həyat yoldaşı, 53 saylı orta məktəbin müəllimi Bəyim Mənafova, BDU-nun III kurs tələbəsi Nəzirə Dursunova və BDU-nun I kurs tələbəsi Nuranə Payızova çıxış ediblər. Çıxışlarda bildirilib ki, ölkəmizin ümumi təhsil müəssisələrində müəllimlərin 81,9 faizi, orta ixtisas təhsil müəssisələrində 81,3 faizi, ali təhsil müəssisələrində 57,4 faizi, tibb sahəsində fəaliyyət göstərən həkimlərin isə üçdə ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,9 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını zərif cinsin nümayəndələri təşkil edir.

Diqqətə çatdırılıb ki, qadınların elmin inkişafında da müstəsna rolu var. Belə ki, elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır. Qeyd olunub ki, qadınların təhsilli olması, onların ailədə təlim-tərbiyəsi vətənpərvər nəslin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bu fakt ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması uğrunda gedən müqəddəs mübarizədə bir daha təsdiqləndi. Sonra ali məktəblərə qəbul olunmuş qadınlara mükafatlar təqdim olunub.

# "Avropa Parlamentinin qətnaməsi qərəzli, separatçılığa dəstəkdir"



"Avropada ikili standartlar mövsümi xarakterli deyil, hər zaman bu qurumun mahiyyətində ayrı-seçkilik olub, var və bundan sonra olacağını da əminliklə demək olar. Nə qədər ki, Avropa İttifaqının "yol xəritəsi"ni, gələcək planlarını, strategiyasını Fransa kimi islamofob, irqçi dövlət müəyyən edir və edəcək, bu qurumdan yaxşı heç nə gözləmək olmaz. Fransa erməni separatçılarına daim kərtənkələ xidməti göstərib və bu gün də Qarabağda ləğv olunmalarına, silinib-süpürülmələrinə baxmayaraq rəsmi Paris tərəfindən bəslənilir, onların əməllərinə dəstək verilir. Bu ölkədə uzun illərdir ki, separatçı korsikalılarla bağlı əsl döyüşlər gedir. Fransa rəsmiləri Korsika adasının azadlıq istəyini boğmaq üçün separatçıların liderlərinə qarşı ən amansız üsullardan, hətta hərbi müdaxilədən istifadə edir, onları zindana salır, öldürür. Bu, danılmaz faktdır. Amma bu ölkənin Qarabağdakı erməni separatçılarına verdiyi dəstəyi yalnız bir formada izah etmək olar, ikili standart nümunəsi, irqi və dini ayrı-seçkilik". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı qətnamənin qəbulunda da Fransa və digər ermənipərəst dövlətlərin rolunun olduğunu bildirib: "Avropa Parlamentinin qətnaməsi qərəzlidir. Buna qəti etirazımızı bildiririk. Bu, addım yalnız ikitərəfli münasibətlərimizə ziyan vurur, indiyədək formalaşmız əlaqələri hədəfə alır. Azərbaycanın Avropa Parlamenti qarşısında heç bir öhdəliyi yoxdur və bu qurumun qəbul etdiyi qətnamə, qərar da bizim üçün adi kağız parçasından başqa bir şey deyil. Avropa Parlamenti İttifaqı öz problemləri ilə məşğul olsa daha yaxşı olar. Dünya ölkələri tərəfindən tanınmış Azərbaycan ərazisinin 20%-i 30 ildən artıq Ermənistan silahlı qüvvələrinin işğalı altında olub. Amma bu gün ermənilərdən ötrü canfəşanlıq edən Avropa Parlamenti azərbaycanlıların faciəsinə etinasızlıq göstərib, əksinə qondarma qurumun müdafiəsinə yönələn addımlar atıb. Separatçıların, işğalçıların, cinayətkarların yanında olub".

***Səbinə***

# "Qatillərin həbsi bütün dünyadakı separatçı rejimlər üçün bir gözdağıdır"

*POLİTOLOQ ŞƏRH ETDİ*



"Separatçı rejimin rəhbərlərinin həbsi "heç bir cinayət cəzasız qalmayacaq" -gerçəkliyini ortaya qoyur" ". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib. Onun sözlərinə görə, saxlanılan cinayətkarlar Azərbaycan dövlətinə qarşı terrordan tutmuş qanunsuz silahlı dəstələr yaratmaqda, təxribatlar törətməkdə, insanımıza qarşı işgəncələrdə, dinc sakinlərimizə qarşı soyqırımda, Qarabağda etnik təmizləmədə və başqa insanlığa zidd əməllərdə əli olan cinayətkarlardır: "Onların hər birinin əli bu və ya digər şəkildə əsgərimizin, mülki insanımızın qanına batıb.

Onların hər biri istər otuz illik işğal dövründə, istərsə də 44 günlük Vətən müharibəsi dövründə, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası, əhalinini təhlükəsizliyinin təmin olunması məqsədilə aparılan lokal xarakterli antiterror tədbirləri zamanı milli düşmənçiliyi qızışdıran, terrorçu qruplaşmaların fəaliyyətini əlaqələndirən fəaliyyətlə məşğul olublar.

Azərbaycan bu şəxslərin saxlanılması ilə xalqa və dövlətə qarşı ağır cinayətlər törətmiş hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsini tarixin ixtiyarına vermədi və sübut etdi ki, kimliyindən asılı olmayaraq Azərbaycana qarşı cinayət törədənlər mütləq şəkildə öz cəzalarını alacaqlar. Azərbaycan bütün dünyaya sübut edir ki, dövlətimizə və xalqımıza qarşı qanlı əməllər törətmiş terrorçular mütləq şəkildə ədalət məhkəməsi qarşısında dayanacaq.

Onların həbsi hələ də revanşist düşüncələrlə yaşayan, hələ də Azərbaycan əleyhinə bəyanatlar verən, hələ də silahlanmadan və "mübarizə" aparmaqdan dəm vuran hər kəs üçün gözdağı olmalıdır. Separatçı rejimin digər tör-töküntüləri, Vitali Balasanyan kimi qatillər də bundan dərs çıxarmalı və eyni aqibəti onların da gözlədiklərini dərk etməlidirlər.

Ümumi mənada isə bu qatillərin həbsi bütün dünyadakı separatçı rejimlər üçün bir gözdağıdır. Onların hər biri dərk etməlidir ki, kimlərində arxasında gizlənməklə, ayrı-ayrı ölkələrin maraqlarına xidmət edərək uzun müddət cəzasız qalmaq mümkün olmayacaq. Gec ya da tez ədalət öz yerini tapacaq və o vaxt zamanında arxanızda dayanan qüvvələr belə sizə yardım etmək üçün əl uzatmayacaqlar".

***S. Hüseynli***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər






"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 6-da YAP Salyan rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Salyan rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# Hara getdi poçtalyonlar, hanı poçt xidməti?



Çox yox, 30 il əvvəl idi, küçəmizdə, məhəlləmizdə hər gün görməyə adət etdiyimiz poçtolyon bir növ ailə üzvümüzə çevrilirdi. Bir gün məktub, başqa gün abunə olduğumuz qəzet-jurnalı, o biri gün bildiriş gətirirdi. "Göyərçin" jurnalını həsrətlə gözlədiyimiz də az olmayıb. "Ana və poçtalyon" şeirini əzbərləyib danışdığımız o illər indi necə uzaq gəlir insana. Hər evə heç olmasa həftədə 1 dəfə baş çəkirdi poçtalyon. Çiynindən asılmış məktub dolu çantası, qoltuğundakı qəzet-jurnal, ayaqla gəzdiyi onlarla küçə, girdiyi yüzlərlə ev - dövrün ümumiləşmiş poçtolyonu belə idi.

O zamanlar poçtalyonlar ünsiyyətin, sosiallaşmanın ayrılmaz hissəsi idi. Qonşu ölkələrdə dərc olunan jurnalları, almanaxları poçtalyonun gətirməsini elə həsrətlə gözləyirdik ki. Poçtalyonlar hansı evə hansı gün məktub gələcəyini, kimin hansı qəzetə, jurnala abunə olduğunu əzbər bilirdi. Məktubda ünvan səhv yazılanda yenə də doğru ünvana çatdırırdı, çünki adbaad, evbəev hamını tanıyırdı. Poçtunu daşıdığı hamının dostu idi poçtalyon. Gözü yazını seçməyən qocaların məktub oxuyanı, yaza bilməyənlərin cavab yazanı idi onlar. Kiminin evində nahara dəvət edilirdilər, kiminin evində isti sacın xamralısına, qaynar samovarın pürrəngi çayına qonaq olurdular. İsti yay günlərində poçtolyon üçün soyuducuda daima sərin su, buz kimi qarpız saxladan babamı xatırladım bir an...

### 9 noyabr Ümumdünya Poçt Günüdür

Ümumdünya Poçt Günü Ümumdünya Poçt İttifaqının (ÜPİ) yaranma tarixi ilə bağlıdır. Ümumdünya Poçt İttifaqı poçt əlaqələrini təmin etmək və təkmilləşdirmək məqsədilə 1874-cü il oktyabrın 9-da İsveçrənin paytaxtında 22 ölkənin nümayəndələrinin imzaladığı Bern müqaviləsi ilə beynəlxalq təşkilat kimi təsis olunub. 9 oktyabrın Ümumdünya Poçt Günü kimi qeyd olunması ilə bağlı qərar isə 1969-cu ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən ÜPİ-nin konqresində qəbul olunub.

192 ölkəni özündə birləşdirən Ümumdünya Poçt İttifaqının baş qərargahı Berndə yerləşir. Yarandığı vaxtdan ötən illər ərzində çox böyük tarixi inkişaf yolu keçmiş ÜPİ hazırda dünyanın, demək olar ki, bütün ölkələrini özündə birləşdirməklə, təkcə poçt sahəsində deyil, həm də beynəlxalq aləmdə vacib rolu olan və digər beynəlxalq təşkilatlarla sıx əlaqəli şəkildə fəaliyyət göstərən bir quruma çevrilib. ÜPİ həm də siyasi bir təşkilat olmaqla BMT-nin xüsusiləşdirilmiş idarəsi kimi fəaliyyət göstərir.

### 2005 yaşlı Azərbaycan poçtu

Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra bir çox beynəlxalq təşkilatlarla yanaşı, 1993-cü ilin aprel ayında ÜPİ-yə üzv qəbul olunub və hazırda tamhüquqlu üzv kimi fəaliyyət göstərir.

Azərbaycanda poçt rabitəsi Səfəvilərin hakimiyyəti dövründə (XVI əsr) inkişaf etməyə başlayıb. Müasir formada poçtun yaranması isə XIX əsrin 1-ci qərinəsinə təsadüf edir. 1818-ci il iyunun 1-də Gəncə şəhərində ilk poçt kontoru açılıb. 1861-ci ildə ilk dəfə olaraq Xəzər dənizi ilə Qafqazın və İranın Rəşt, eləcə də Astarabad limanları arasında dəniz poçt mübadiləsi yaranıb. 1863-1872-ci illərdə İran tranzit ticarətinin müdafiəsi məqsədilə Tiflis və Culfa arasında poçt rabitəsi qurulub. Culfada poçt şöbəsi yaradılaraq, İranla Azərbaycan arasında ilk beynəlxalq məktub mübadiləsi təsis edilib.

Azərbaycanda poçtun dəmiryol nəqliyyatı ilə daşınmasına 9 may 1883-cü ildə Bakı-Tiflis,1900-cü ildə isə Bakı-Dərbənd arasında başlanılıb. 1918-ci il oktyabrın 6-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibində Poçt və Teleqraf Nazirliyi yaradılıb.

### Müharibə poçtalyonları

Azərbaycan poçtunun ən çətin və həm də ən şərəfli dövrü II Dünya müharibəsi illərinə təsadüf edir. Bu illərdə xüsusilə poçtalyonların fədakarlığını qeyd etmək vacibdir. Həmin dövrdə poçt işçilərinin üzərinə ikiqat məsuliyyət düşürdü, çünki poçt göndərişlərinin həcminin artması və əsgər məktublarının vaxtında ünvanlara çatdırılması bütün mənalarda məsuliyyət tələb edirdi.

Müharibə dövründə poçtalyon işləmək həm də möhkəm iradə tələb edirdi. Əsgər məktublarını sevinclə daşıyan poçt işçiləri qara kağızların ünvana çatdırılması işində ciddi sarsıntı keçirir, aylarla, illərlə üçbucaq əsgər məktubu daşıdığı ailəyə ölüm xəbəri verməyin əzabını yaşayırdılar. O dövrdə poçtalyonlar ən çox arzulanan qonaq idi, amma məktubların arası kəsiləndən sonra poçtalyon arzuedilməyən qonaq olurdu, "qəfil gələr, qara xəbər gətirər" qorxusu olurdu ailələrdə.

### Poçt xidməti bahalıdır

Təəssüf ki, hazırda nəinki beynəlxalq, həmçinin ölkədaxili poçt xidmətlərində sürətli bahalanma var. Ölkədaxili banderol, həmçinin orta və böyük ölçülü bağlamaların daşınma xidmətləri üçün təyin edilən qiymətlər bahadır.

Böyük ölçülü məktub və banderol üçün təyin edilən tarif 100 qramadək sadə 0,80, sifarişlə 1,40 manatdır. 100 qramdan 250 qramadək olan banderollar sadə 1,10, sifarişlə 1,70, 250 qramdan 500 qramadək olan banderollar 1,40 - 2,00 aralığındadır. Həcmin miqdarı qramla artıqca tarif də artır. 2 kiloluq bir paketi ölkədaxili bir ünvana 3-3.60 manata göndərə bilərsiniz.

Adi bağlamanın 1 kq-ı üçün təyin edilən məbləğ 0.60 qəpikdir. Yəni, siz bir rayondan digərinə 10 kq-lıq bir qutu göndərsəniz bunun üçün poçta 6 manat rüsum ödəməli olacaqsınız. Həmçinin, çəkidən asılı olmayaraq hər bağlama üçün 3 manat tələb edilir. Beynəlxalq poçt xidmətləri isə I və II zona üzrə ayrılmaqla fərqli tariflərlə həyata keçirilir. Kiçik ölçülü məktub üçün tarif 2.10 manatdan. 5.70 manatadək dəyişə bilir. Böyük ölçülü məktub və banderol üçün qiymətlər 9.30-dan 16 manatadək dəyişir. Həcm artıqca göndərmə xərcləri 50 manatadək yüksəlir.

Əvvəl internetin, sonra da sosial şəbəkələrin həyatımıza girdiyi vaxtdan etibarən daha poçtalyonalara da ehtiyac qalmadı. 1 həftə məktub gözləmək xəyal oldu, "e-mail"imizə 1 neçə dəqiqəyə cavab almaq daha rahat gəldi bizə. Sosiallaşmaq üçün daha məktub gözləmədik, mütaliə üçün mətbuə orqan gözləmədik, bütün ehtiyaclarımızı internet ödədi. Geridə isə işsiz qalan poçtalyonlar və bahalı poçt xidmətləri qaldı...

***Lalə Mehralı***



Elçin Bayramlı

# Rüşvət verən olmasa, heç kim ala bilməz

**Bir dövlətin, bir cəmiyyətin ən böyük düşməni korrupsiyadır. Ona görə də, korrupsiyaya qarşı mübarizədə dövlətlə cəmiyyət eyni cəbhədə olmalıdır. Dövlət bu sahədə lazımi addımlar atır-korrupsiyaya qarşı mübarizədə milli fəaliyyət planı hazırlanıb, bir çox praktiki tədbirlər həyata keçirilib və s.**

Bəs korrupsiya hallarının müəyyənləşdirilməsi, korrupsionerlərin məsuliyyətə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi üçün ictimaiyyət nə etməlidir? Vətəndaş cəmiyyətinin burada çox böyük rolu ola bilər. Əksər ölkələrin təcrübəsi bunu bizə aydın göstərir. Təəssüf ki, bizdə vətəndaşlar belə məsələlərdə passivdir.

Vətəndaş cəmiyyəti "bu, mənim işim deyil, mən qarışmıram, mənə nə", prinsipi ilə qurulmur. Azərbaycanda dövlətin, hakimiyyətin mənbəyi xalqdır və ölkə prezidenti həmişə vətəndaşları fəal olmağa, dövlət quruculuğunda, vətəndaş cəmiyyəti quruculuğunda iştirak etməyə, problem və nöqsanların aşkara çıxarılmasında öz töhfələrini verməyə çağırılır. Və dövlət başçısı özü ən sərt şəkildə neqativ halları, problemləri deyir, öz vəzifəsini yerinə yetirməyən məmurları sərt tənqid edir və cəzalandırır.

Bundan artıq nə olmalıdır ki, vətəndaşlar başa düşsün ki, vətəndaş məsuliyyəti vacib şeydir?! Bu gün inkişaf etmiş ölkələrə baxsaq görərik ki, məhz belə cəmiyyətlər qurulub. Bizdə isə bir çox hallarda "mən" "biz"dən üstün tutulduğundan heç kim özünü əziyyətə salmır. Sonra da deyirlər, filan məsələ niyə həll olunmadı

Biri nədənsə çəkinir, bizi özünü kiminləsə pis eləmək istəmir, biri "mən niyə deyim, qoy başqası desin", fikirləşir və s. Belə vətəndaşlıq olmur, belə cəmiyyət yaranmır. Bizdə cəmiyyətin əvəzinə rüşvətxor məmurlarla jurnalistlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri mübarizə aparır, vətəndaşların əvəzinə onların hüquqlarını tələb edirlər. Birisi aparıb məmura zorla rüşvət verir ki, oğlunu işə düzəltsin və ya filan məsələni həll etsin, sonra da deyir, ölkədə rüşvət var. Bəli, rüşvət var, amma sənə görə var. Sən rüşvət verirsən deyə var. Rüşvət verən olmasa, alan da olmaz. Bu, adi məntiqdir.

Bu təfəkkürlə normal cəmiyyət, normal ölkə qurmaq mümkün deyil. Bu problemin həll olunması üçün əvvəlcə vətəndaş təfəkkürü dəyişməlidir. Bu günlərdə ən aktual məsələ müəllimlər günü idi. 5 oktyabr qabağı bəzi valideynlər ortaya düşüb pul yığmaqla məşul idilər ki müəllimə versinlər. Halbuki bir çox müəllimlər, heç bir tələb etməyiblər, hətta bəziləri sərt şəkildə xəbərdarlıq ediblər ki, bu məqsədlə pul yığılmasın. Buna baxmayaraq, valideynlər canfəşanlıqla bu rüşvətin yığılmasını təşkil edir və zorla müəllimə verməyə çalışırlar.

Ya da tenderlərin keçirilməsində şəffaflıq yoxdur, kim kimə istədi tenderi verir və şişirdilmiş qiymətlərlə layihəni həyata keçirdir, beləliklə xeyli dövlət vəsaitini mənimsəyirlər. Bununla bağlı faktlar açıqlananda tədbirlər görülür, amma bir çox belə hallar haqda ümumiyyətlə məlumat verilmir. Belə ki, tenderdə haqsız uduzan şirkət belə heç yerə şikayət etmir, məsələni ictimailəşdirmir.

Ona görə də, biz həqiqətən də rüşvətsiz cəmiyyət, korrupsiyasız dövlət qurmaq istəyiriksə, hər birimiz bu prosesdə fəal olmalı və vətəndaş mövqeyimizi ortaya qoymalıyıq. Bunun üçün özümüzdən başlamaq kifayətdir- biz heç kimə rüşvət verməməli, belə hallar qarşılanda isə məsələni ictimailəşdirməli və müvafiq orqanlara çatdırmalıyıq.

Əgər bunu etmiriksə, deməli bu vəziyyət bizə sərf edir. Sərf edirsə, onda niyə şikayətlənirik ki? Şikayətləniriksə, bu vəziyyəti düzəltməyə çalışmalıyıq. Bunun üçün ən yüksək səviyyədə siyasi iradə də var, hüquqi baza da, ictimai platforma da.

Əsas prinsipi unutmayaq- rüşvət verən olmasa, heç kim ala bilməz! Beləliklə, bu problem həll olunmuş olar.

# Tofiq Yaqublu imicini dəyişir



İstər 44 günlük Vətən Müharibəsində, istərsə də 2023-cü il sentyabrın 19-da başlayan və cəmi 23 saat 44 dəqiqə çəkən lokal xarakterli antiterror tədbirlərinin zəfərlə başa çatması Ordumuzun peşəkarlığının növbəti nümayişi, diplomatiyamızın müdrikliyinin nəticəsi idi. Artıq erməni separatizmi tamamilə ləğv edilib, silahlı birləşmələr tərksilah olunublar. İkinci dünya müharibəsindən sonra ilk dəfə olaraq xalqlar arasında milli münaqişə yaradıb, ölkələrin bütövlüyünü parçalamağa cəhd edən baş terrorçular həbs ediliblər. Onları ən ağır cəza gözlədiyi şübhəsizdir. Həm də Arayikin, Vardanyanın, Saakyanın, Qukasyanın və digərlərinin həbs edilərək istintaqa təhvil verilməsi dünyada separatçılığı təbliğ etməyə çalışanlara bir şillə oldu. Nümayiş etdirildi ki, ölkələrin ərazi bütövlüyünə qəsd etməyə çalışanların aqibəti Vardanyan, Arayik və digərləri kimi ola bilər.

## Dağıdıcı müxalifət başbilənləri erməni lobbisi kimi danışırlar

Bu gün Azərbaycanın işğaldan azad edilən ərazilərində üçrəngli bayrağı dalğalanır. Çətin də olsa, separatçıların nəslindən olanlara vətəndaşlıq verilir. Bununla da onlar öz sakit, rahat yaşayışlarını davam etdirirlər. Azərbaycan Respublikasının rəsmi qurumları açıq mətnlə qeyd ediblər ki, "Azərbaycanın Qarabağ bölgəsindəki erməni sakinlərə reinteqrasiya təklif olunub, buna razı və ya hazır olmayanlar könüllü şəkildə ərazini tərk edir, buna tam şərait yaradılır, heç bir zorakılıq halı yoxdur". Bəziləri də var ki, onlar ölkəmizin ərazisini tərk edirlər. Hansı ki, bu şəxslərin Azərbaycanın konstitusiya quruluşuna qarşı silahlı fəaliyyət göstərdiklərinə şübhə yoxdur. Çünki günahsız insan niyə də ki isti yerindən olsun? Bildiyin və dərk etdiyin halda ki, gedəcəyi yerdə ciddi problemlər var. Fakt ondan ibarətdir ki, Ermənistan iqtisadi, sosial cəhətdən dünyanın ən geridəqalmış dövlətidir. Deməli, Azərbaycan ərazisini tərk edib, Ermənistana qaçanları ağır, məşəqqətli həyat gözləyir. Bu isə artıq onların seçimidir. Bu arada diqqətçəkən digər məqam ondan ibarətdir ki, xarici maraqlı dairələrlə yanaşı, Azərbaycanın dağıdıcı müxalifəti də Ermənistana köç edənlərin halına acıyır, bunun demokratik dünya düzəni prinsiplərinə zidd olduğunu sayıqlayırlar. Halbuki yuxarıda qeyd etdiyim kimi, Ermənistandan köç etmək onların azad seçimləri olub. Onlara təzyiq edən, qovan da olmayıb. Lakin Azərbaycanın dağıdıcı müxalifəti bunun fərqinə varmadan erməni lobbisinin maraqlarına uyğun açıqlamalar verir, sosial şəbəkələrdə statuslar paylaşırlar.

Hətta AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, "Milli Şura"nın üzvləri Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, AXCP sədr müavini Fuad Qəhrəmanlı və digərləri, Azərbaycana qarşı "qara piar" kampaniyası aparırlar. Bu məxluqlar cəmiyyətdə mövcud olan milli birliyimizə xələl gətirmək, insanlar arasında çaşqınlıq yaratmaq, beynəlxalq aləmdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq üçün əxlaqazidd vasitə və üsullardan istifadə edirlər. Bəzən şübhəli məqamlar yaranır ki, bu üzüdönüklər Ermənistanın xüsusi xidmət orqanlarının sifarişlərini yerinə yetirirlər. Əgər Cəmil Həsənli "ermənilər özlərinə daha sivil, demokratik yaşayış qura biliblər" deyirsə, Tofiq Yaqublu "Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır", - deyə bildirirsə və əlavə olaraq "Vardanyanın həbs edilməsi arzuedilən deyildi" cəfəng fikirlər səsləndirirsə, Əli Kərimli "Ermənistanda Paşinyanın rəhbərliyi ilə demokratik dövlət qurulur" - deyə söyləyirsə, bu halda onların ən az erməni təəssübkeşləri olduğunu demək mümkündür. Niyə məhz Ermənistan misal olaraq göstərilir? Nədən başqa bir ölkənin rəhbəri deyil Paşinyan misal olaraq göstərilir? Ehtimallar yaranır ki, erməni lobbisi onları, məhz rüsvayçı yaşam tərzi ilə tanınan və seçilən Ermənistanı tərifləməyə yönəldiblər.

## Sabah Əli Kərimli erməniyə "dayı" desə, təəccüblü görünməyəcək

Qeyd etdiyim ehtimallarımı gücləndirən daha bir misal, Ə.Kərimlinin açıq şəkildə Ermənistanın uğurlu siyasət yürüdüyünü qeyd edib, bu istiqamətdə ironiya yaradan, gülüş doğuran ifadələr səsləndirməsidir. Əli Kərimli yanayana deyir: "Savaşdakı hərbi uğurumuza baxmayaraq, təəssüf ki, hazırkı start vəziyyətində bizim dövlət olaraq vəziyyətimiz Ermənistanın vəziyyətindən daha uğursuzdur. Hərbi məğlubiyyət yaşayan Ermənistan Rusiya buxovundan sürətlə qopur, Qərbə inteqrasiyanı gücləndirir. Artıq Fransa Ermənistanı silahlandıra biləcəyini bəyan edib. Avropa Birliyi və ABŞ-ın yardımları ilə Ermənistan Qarabağdan getmiş ermənilərin sosial problemlərini də tezliklə həll edəcək. Paşinyan hakimiyyətini Rusiyanın qəsdlərindən qoruya bilsələr, Qərb yardımları, sərmayə və kreditləri tezliklə bu balaca ölkənin iqtisadi inkişafına da səbəb olacaq.

Proseslər belə davam etsə, Ermənistan yaxın illərdə Avropa Birliyinə əvvəlcə namizəd ölkə statusu alacaq, müəyyən müddətdən sonra da Gürcüstanla birlikdə AB üzvü olacaq". Fikir verin, Ə.Kərimlinin ağlınca Ermənistan Fransanın yanında olmaqla demokratiya küləyi İrəvan küçələrindən əskik olmayacaq. Düşünür ki, Qərbin sosial, iqtisadi yardımları nəticəsində Ermənistandakı dilənçilərin sayı azalacaq, zorakılıqlar aradan qalxacaq. Lakin bu məxluq başa düşmür ki, Qərb on pay almasa, bir pay verməz. Digər tərəfdən, Fransa və Almaniya Ermənistandan bir alət kimi istifadə edir. Məqsəd və niyyətləri ondan ibarətdir ki, Ermənistan vasitəsi ilə Cənubi Qafqazda özlərinə yer tutsunlar. Regionun lideri Azərbaycan olduğundan kənar işbazların niyyətlərinin reallığa çevrilməsi mümkünsüzdür. Əli Kərimli başqa bir statusunda iddia edir ki, Rusiya ilə eyni mövqedən çıxış etməklə Azərbaycan yanlışlığa yol verir: "Dünya bizi işğalçı Rusiyanın yanında görür. Azərbaycan hakimiyyəti Putinə yaxın sayılır, nəinki Qərb koalisiyasına. Azərbaycan xalqının heç bir fundamental hüquq və azadlığı təmin olunmur. Bir günlük savaşdan az öncə Avropa Birliyi parlamenti xüsusi qətnamə qəbul edib, professor Qubad İbadoğlu başda olmaqla ölkədəki 200 nəfərdən artıq siyasi məhbusu azad etməyi, ölkədə sərbəst toplaşma hüququnu təmin etməyi Azərbaycan hakimiyyətindən tələb etmişdi". Ə.Kərimliyə xatırlatmaq lazımdır ki, Azərbaycan dünyanın əksər ölkələrinin və xalqlarının qibtə ilə baxdıqları azad, demokratik dövlətdir. Yəni, özünün müəyyənləşdirdiyi və uğurla davam etdirdiyi siyasəti var. Hansı ki, bu siyasət insanlara fundamental azadlıqlar, dövlətimizə güc və qüvvət verib. Daha böyük uğurlarımız və qələbələrimiz isə qabaqdadır. Çünki amalı qurub, yaratmaq olan Azərbaycan xalqı işğaldan azad edilən əraziləri yenidən qurmaqla o bölgələrə yeni həyat verəcək və bu da onların rahat, firavan yaşayışlarına yeni təkan olacaq.

**İ.ƏLİYEV**

---

ŞƏRH+AKTUAL

# Separatçı quldurlar belə cəzalandırılacaq

*Vaxt və zaman yetişdi!*

***Arayik Arutyunyan, Ruben Vardanyan, Bako Saakyan və s. separatçı quldurların həbs edilmələri olduqca önəmli məsələ olması ilə yanaşı, həm də dünya düzəni qarşısına qoyulan yeni, danılmaz faktdır. Məhz bu faktla Azərbaycan dünyaya sübut etdi ki, xalqına cinayətlər törətmiş şəxsləri əsla bağışlamaq fikrində deyil.***

## Azərbaycanda bu əməllərə imza atmış yüzlərlə şəxsin adı keçir



Mühüm amil isə budur ki, onların hamısı Azərbaycan ədalət məhkəməsi qarşısında cavab verəcəklər. Politoloq Oqtay Qasımov mövzu ilə bağlı bildirib ki, 35 ildən bəri xalqımıza qarşı törədilən hərbi cinayətlər və bunları planlayan, iştirak edən, göstəriş verənlərin hər birinin haqqında materiallar toplanıb. O cümlədən, Azərbaycanda bu əməllərə imza atmış yüzlərlə şəxsin adı keçir və onlar haqqında cinayət işi qaldırılır: "Son dövrlərdə əsas fiqurların həbs olunması, xüsusən, üç separatçı - qondarma prezidentlərin həbsi olduqca ciddi nəticədir. Bu şəxslərin məhkəməsi beynəlxalq diqqəti cəlb edəcək. Azərbaycan bundan istifadə edərək, açıq məhkəmə keçirəcək. Erməni faşizminin Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin ifşası üçün bu məhkəmə prosesindən istifadə edəcək".





## Nürnberq, Haaqa və s...

Politoloqun şərhindən həm də belə bir nəticə hasil etmək olar ki, hərbi cinayətkarların mühakimə olunması ciddi məsələdir. Bu kimi məhkəmələr isə dünyanın diqqəti mərkəzində olur. Məsələn, məşhur Nürnberq məhkəməsi.

"Nürnberq məhkəməsindən başlayan bu proses müxtəlif dövrlərdə davam edib. 90-cı illərdə keçmiş Yuqoslaviya ərazisində etnik təmizləmələrə və hərbi cinayətlərə imza atmış şəxslərin mühakimə olunması üçün Haaqa Məhkəməsi keçirildi. Bir çox keçmiş lider, general və siyasətçilər bu məhkəmədə mühakimə olundular. Digər bir istiqamət İsrail metodudur. İsrail İkinci Dünya Müharibəsində yəhudi xalqına qarşı hərbi cinayətlər və soyqırımı törətmiş, bu proseslərdə aktiv rol almış şəxslərin siyahısını müəyyənləşdirdi. İsrail dövləti yarandığı gündən bu günə qədər də nasistlərin və bu faşist liderlərin axtarışını davam etdirib. Zaman-zaman onların üzə çıxarılması və mühakimə edilməsi prosesini həyata keçirir", - deyən Qasımova görə, bunun son örnəyi yaşı artıq doxsanı keçmiş Adolf Eyxmanla bağlıdır. Belə ku, təxminən 60 il sonra (!) onun Argentinada yaşadığı müəyyən edildi. Faşist cəlladının şəxsiyyəti müəyyən ediləndən sonra həbs edilərək məhkəməyə çıxarıldı.

## Respublikanın Baş Prokurorluğunda mindən artıq şəxslə bağlı cinayət işləri açılıb

Söz yox ki, Azərbaycan da bu metoddan istifadə edəcək. 1988-ci ildən başlayaraq xalqımıza qarşı və sonrakı dövrdə dövlətimizə qarşı hərbi cinayətlər törətmiş və ölkəmizi bölməyə çalışmış şəxslər yaxalanaraq mütləq mühakimə olunacaqlar. Bildiyim qədər bununla bağlı qeyd edək ki, Respublikanın Baş Prokurorluğunda mindən artıq şəxslə bağlı cinayət işləri açılıb və onların icrası davam etdirilir. Necə deyərlər, vaxtı və zamanı çatıb.

***Afət Tahirqızı***

# Öyrənmə fərqi-disleksiya

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*

**Disleksiya problemi indi insanlar tərəfindən geniş şəkildə tanınmasa da, ümumilikdə cəmiyyətdə yayılan mühüm problemdir. Dünya üzrə normal əhali ilə müqayisədə disleksiyanın yayılma faizinin 8-10% arasında olduğu bildirilir. 5-11 Oktyabr aralığı Ümumdünya Disleksiya Həftəsidir. Bu həftənin rəsmi rəmzi kimi firuzəyi rəng Birləşmiş Millətlər Təşkilatı ilə razılaşaraq bütün dünyada istifadə olunacaq disleksiya rəngi olaraq qəbul edilib.**

Dyslexia Day
8 October












Disleksiya anadangəlmə, inkişaf və zədəyə bağlı olaraq iki yerə ayrılır. Anadangəlmə disleksiya doğuş əvvəli, doğuş zamanı və doğuş sonrası fəsadlara bağlı olaraq üçə ayrılır. Anadangəlmə disleksiyaya zəif və rejimsiz qidalanma, hamiləlik zamanı keçirilən infeksiyalar və yanlış dərman istifadəsi səbəb ola bilər.Uzun və çətin doğuş zamanı uşağın nəfəs almasındakı gecikmə və sonradan keçirdiyi qızdırmalı xəstəliklər də disleksiyanın səbəblərindəndir. İrsi faktorlara bağlı olaraq da disleksiya ortaya çıxa bilər..

Disleksiya anadangəlmə bir problem olduğu üçün uşaqlarda erkən yaşlarda özünü danışmada gecikmə, yeni sözləri gec öyrənmə, hərəkət və koordinasiya pozuqluğu, istiqamət (sağ, sol, yuxarı, aşağı) və zaman (bu gün, sabah, əvvəl, sonra) anlayışlarında çətinliklər, danışarkən düzgün sözlərdən istifadə etməmək kimi əlamətlərlə göstərir.

Disleksiya insanların müəyyən dil bacarıqlarında, xüsusən də oxumaqda çətinlik çəkməsi ilə nəticələnən problemdir. Dəqiq səbəblər hələ bilinməsə də, bu problemi yaşayan insanlarda beynin inkişaf və fəaliyyətində fərqlər qeydə alınıb. Bu cür insanların nitq səslərini müəyyən etməkdə və ya hərflərin səsləri necə ifadə etdiyini öyrənməkdə çətinlik çəkdiyi hesab edilir. Bu problem də onların oxumaqda çətinlik çəkmələrinə səbəb olur. Yadda saxlamaq lazımdır ki, disleksiya zəka çatışmazlığından qaynaqlanmır. Müvafiq metodlarla bu cür insanlar asanlıqla öyrənə bilərlər.

Disleksiyanın təsiri hər bir insan üçün fərqlidir. Disleksiyanın dərəcəsindən, düzəlmə meylliliyindən, effektivlikdən çox şey asılıdır. Əsas çətinlik sözün tanınması, onu oxumaq, imla və yazı yazmaqla bağlıdır. Onlar özlərini aydın ifadə etməkdə və ya başqalarının nitqini başa düşməkdə çətinlik çəkə bilərlər. Bu cür dil problemləri məktəbdə, işdə və digər insanlarla münasibətlərdə böyük problemlər yarada bilər. Bununla belə, bir çox disleksiya problemi olan insanlar qrammatika, dərslik materialını başa düşmək və esse yazmaq kimi daha mürəkkəb dil bacarıqları ilə bağlı irəliləyiş əldə edə bilir.

Disleksiya ömür boyu davam edən bir vəziyyətdir. Müvafiq kömək və dəstək proqramları ilə bir çox insan yaxşı oxumağı və yazmağı öyrənə bilər. Bu şəxslərin xüsusi təlim keçmiş müəllim və ya terapevtin köməyinə ehtiyacı var. Çünki onların eyni vaxtda bir neçə hiss orqanını (eşitmə, görmə, toxunma) əhatə edən sistemli və aydın üsulla təhsil almaları vacibdir. Erkən diaqnostika və müalicə onların məktəbdə və həyatda uğur qazanmasına kömək edən açardır.

Disleksiyalı üzvü olan ailələr, habelə məktəb kollektivi bu uşaqların məktəbdə yaşadıqları öyrənmə problemlərinə qarşı diqqətli olmalıdırlar. Disleksiyanın yaratdığı əngəlləri tənbəllik və ya bacarıqsızlıq ilə əlaqələndirməzdən əvvəl mütəxəssis tərəfindən lazımi qiymətləndirmələr aparılmalıdır. Erkən müdaxilə uşağın yaşadığı öyrənmə problemini azaldacaq və onun məktəblə münasibətinə müsbət təsir edəcək. Öyrənmə pozğunluğunun səbəbi nə olursa-olsun, vacib olan ailələrin və pedaqoqların problemin varlığını qəbul etməsi və həll yolunda addım atmalarıdır.

Disleksiya problemi olan uşaqlarda daha çox rast gəlinən hallar oxuduğu mətnləri dəfələrlə oxuduqdan sonra anlaya bilmə, istiqamət anlayışlarında çətinlik, danışıq zamanı düzgün sözlərdən istifadə edə bilməmək, unutqanlıq, hərfləri öyrənməkdə çətinlik, obyektlərin, əşyaların adlarını xatırlamaqda yaranan çətinlik, oxu zamanı sürətin zəif olması, yazdığı zaman dəfələrlə səhvlərə yol vermək, oxşar səsləri qarışdırmaq, zaman anlayışının ifadəsində yaranan problemlər, imla yazmaqda, yazıları oxumada çətinlik kimi vəziyyətlərdir.

Valideynlər disleksiya problemli övladları ilə bağlı bir neçə mühüm məqma diqqət yetirməlidirlər. Öncə mütəxəssisə müraciət etməli, övladınızın düzgün qidalanmasına önəm verməlisiniz. Digər ailə üzvlərinin çətinlik yaşayan övladınızla münasibətlərinə tənzimləyin, övladınızn sosial adaptasiyasına yardım edin, məktəbdə müəllimələrin övladınızın çətinliyi ilə bağlı məlumatlı olmasından və müvafiq təlim və tərbiyə yanaşması seçməsindən əmin olun.

Unutmayın, hər uşaq öyrənir. Bəzən eyni vaxtda, bəzən fərqli anlarda, bəzən eyni formada, bəzən də fərqli formada öyrənir, amma öyrənir. Unudulmamalıdır ki, disleksiya bir xəstəlik deyil, öyrənmə üslublarının fərqliliyidir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
7 oktyabr
2023-cü il

# Qorunan əmanətlərə nələr aid deyil?

*VƏKİL AÇIQLADI*





“Artıq bir neçə ildir ki, Prezident İlham Əliyev ”Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununu imzalayıb”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, dəyişikliyə əsasən, əmanət - hesablanmış faizlər də daxil olmaqla, bankın milli və xarici valyutada qəbul etdiyi və müvafiq qanunvericiliyə və ya müqaviləyə əsasən geri ödəməli olduğu pul vəsaitləri, o cümlədən notariusun depozit hesabına mədaxil edilmiş fiziki şəxslərə məxsus vəsaitləridir: ”Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 min manatdan yuxarı pul vəsaitləri qorunan əmanətlərə aid edilmir. Həmçinin Əmanətlərin Sığortalanması Fondu tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

Dəyişiklikdən daha əvvəl isə əmanətlərin Sığortalanması Fonduna üzv olan bir və ya bir neçə bankda sığorta hadisəsi baş verdiyi zaman fond tərəfindən sığortalanan əmanətlərə görə əmanətçiyə hər bir sığorta hadisəsi üçün 30 000 manat məbləğində kompensasiya ödənilirdi Qorunan əmanət sığorta hadisəsi baş verdikdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan əmanətçiyə kompensasiya olunan əmanətidir. Lakin aşağıda sadalanan əmanətlər qorunan əmanətlərə aid edilmir:

1) bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

2) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

3) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

4) üzərinə həbs qoyulmuş əmanətlər; cəlb edildiyi günə Əmanətlərin Sığortalanması haqqında Azərbaycan Respublikası Qanununun 8.1.20-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər; fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri.

Tam qorunan əmanətlərin 100 min manata qədər artırılması ilə bağlı maddə 2021-ci il 5 aprel tarixindən qüvvəyə minmişdir”.

***Ayşən Vəli***

# Aparıcıların ləhcə ilə danışması düzgündür?

*TELETƏNQİDÇİ DANIŞDI*



“Televiziya dili şifahi ədəbi dilin normalarına əsaslanan normativ dildir. Ona görə televiziya dilində ədəbi normalar əsasdır. Amma bunun özündə də yarımüslublar var. Məsələn, xəbərin üslubu ilə şou proqramının üslubu arasındakı fərqi dərhal görmək mümkündür. Xəbər daha çox rəsmi, ciddi üsluba əsaslanır. Amma şou proqramları sərbəst üsluba aiddir”. Bu sözləri SİA-ya açıqlamasında jurnalist, teletənqidçi, filologiya elmləri doktoru Qulu Məhərrəmli deyib.

Onun sözlərinə görə, təbii ki, bu üslubların hər birində ədəbi tələffüz əsas götürülür: ”Ona görə də televiziya və ya radioda ləhcə ilə danışmaq, hansısa dialekti nümayiş etdirmək yolverilməzdir. Doğrudur, verlişdə iştirak edənlər olduğu bölgənin şivəsində danışa bilər. Buna ciddi irad yoxdur. Amma söhbət televiziya təmsilçilərindən gedirsə, aparıcılar və digər dil daşıyıcıları maksimum ədəbi dildə danışmalıdırlar. Onu da qeyd edim ki, ədəbi dildə danışmaq quru, rəsmi formada danışmaq demək deyil. Televiziyada yaşanan norma pozuntularına görə ilk növbədə verlişin redaktoru məsuliyyət daşıyır”.

***L. Sərraf***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Avtomobillərin çoxalması ekologiyada hansı dəyişikliklərə səbəb olacaq?

*EKOLOQ AYDINLIQ GƏTİRDİ*



“Avtomobillərin sayı bütün dünyada olduğu kimi, Azərbaycanda da sürətlə artmaqdadır. Demək olar ki, avtomobili olmayan bir ailə tapmaq çox çətindir. Xüsusilə, iri şəhərlərdə avtomobillərin çoxluğu ciddi problemlər yaradır. İlk növbədə bu, hava keyfiyyətinin dəyişməsi ilə bağlıdır. Yəni, bizim avtomobillərin əksəriyyəti daxili-yanma və dizel mühərrikləri ilə işlədiyi üçün atmosferə kükürd qazı, bərk maddələr, tozlar və azot oksidləri daxil olur, eyni zamanda karbondioksidin miqdarı artır”. Bu sözləri SİA-ya açıqlamasında ekoloq Rövşən Abbasov deyib.

Onun sözlərinə görə, bu da daha çox Bakı və Sumqayıt ərazisində atmosfer havasının çirklənməsi deməkdir: ”Yəni, avtomobillər çoxaldıqca atmosferdəki çirkləndiriciıərin miqdarı artır. Atmosfer havasının çirklənməsi isə insanlarda müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilər. Bununla bağlı müəyyən işlər görülür. Azərbaycana idxal olunan ənənəvi mühərrikli maşınlar elektron avtomobillər ilə əvəz olunmağa başlayıb”.

”Ümid edirik ki, bu, yaxın 10 ildə öz effektini kifayət qədər göstərəcəkdir. Bundan başqa ictimai nəqliyyatın gücləndirilməsi üçün mütləq şəkildə tədbirlər görülməlidir ki, insanlar daha çox şəxsi avtomobildən yox ictimai nəqliyyatdan istifadə etsin. Metro şəbəkəsinin genişləndirilməsi, avtobusların işinin effektiv təşkil olunması bu tədbirlərə aid edilə bilər”,- deyə o əlavə edib.

***Ləman Sərraf***

# “Fənərbağça” Türkiyə tarixində rekorda imza atıb



“Fənərbağça” klubu UEFA Konfrans Liqasında son qarşılaşmada qələbə qazanmaqla Türkiyə tarixində rekorda imza atıb. Belə ki, ”sarı-bülbüllər” səfərdə Slovakiyanın ”Spartak Trnava” klubuna 2:1 hesabı ilə qalib gəlməklə Avropada 9 oyun ardıcıl qələbə qazanan ilk türk komandası olub. Qeyd edək ki, İsmail Kartalın yetirmələri bu mövsüm bütün turnirlər daxil olmaqla ardıcıl 15 qələbə qazanıb.

***Mətləb***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**